RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 16 (8332) BAZAR, 26 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 67 sərəncam, 229 milyon manat vəsait

## Ötən il Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına mühüm sosial-iqtisadi layihələr gerçəkliyə çevrildi

2019-cu il ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm uğurlu hadisələrlə yadda qaldı. Azərbaycanın iştirakçısı olduğu bəzi beynəlxalq layihələr reallaşdı, həm paytaxt Bakıda, həm də regionlarda abadlıq-quruculuq işləri davam etdirildi, yeni sosial-iqtisadi infrastrukturlar, sosial-iaşə obyektləri açıldı. Həmçinin Bakı beynəlxalq forum və konfranslara, idman yarışlarına evsahibliyi etdi.

Prezident İlham Əliyev bu uğurların daha da geniş vüsət alması, yeni-yeni sosial-iqtisadi obyektlərin inşası, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün imzaladığı sərəncamlarla ehtiyat fondundan kifayət qədər vəsait ayırdı.

### Abadlıq-quruculuq, yenidənqurma işləri

Hər il olduğu kimi, 2019-cu ildə də Prezidentin xalqın rifahına xidmət edən fərman və sərəncamları, imzaladığı sənədlər ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Dövlət başçısının sərəncamlarının əksəriyyəti ölkədə demokratik təsisatların daha da gücləndirilməsinə, idarəetmə strukturlarının təkmilləşdirilməsinə, iqtisadi islahatların davam etdirilməsinə və sosial infrastrukturun yaxşılaşdırılmasına yönəldildi.

2019-cu ildə dövlət başçısının imzaladığı 67 sərəncam və 1 fərmanla Prezidentin Ehtiyat Fondundan abadlıq-quruculuq, təhsil, mədəniyyət və yol-nəqliyyat infrastrukturunun daha da yaxşılaşdırılması üçün ümumilikdə 229 milyon manat vəsait ayrıldı.

Bu sərəncamlardan 11-i abadlıq-quruculuq işlərinə aid idi. Dövlət başçısının imzaladığı sənədlərə əsasən bir neçə şəhər və rayonda çoxmənzilli binaların dam örtüyünün təmiri, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və yaşayış binalarının tikintisi üçün ehtiyat fondundan 50,3 milyon manat vəsait sərf olundu.

Ötən il ilk olaraq paytaxt Bakıda 380 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə 10 milyon manat vəsaitin ayrılması ilə bağlı Prezident sərəncam imzaladı.

Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün 11 milyon manat, həmçinin burada yaşayış binasında baş vermiş partlayış nəticəsində ziyan çəkmiş sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə yeni çoxmənzilli yaşayış binasının tikintisi üçün 3,7 milyon manat, Lənkəran rayonunda 90 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi məqsədilə 2,3 milyon manat, Qəbələ şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün 3 milyon manat, Ağdaş şəhərində qəzalı vəziyyətdə olan evlərdə məskunlaşmış sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün 3 milyon manat ayrılıb.

Prezident Sumyaqıt şəhərində abadlıq-quruculuq, dam örtüklərinin dəyişdirilməsi ilə bağlı 2 sərəncam imzalayıb. Birinci sərəncama əsasən, şəhərdə abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi üçün 3 milyon manat, digər sərəncama əsasən isə Sumqayıtda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi üçün 6 milyon manat vəsait yönləndirilib.

Bundan başqa, Astara rayonunun ərazisində baş vermiş torpaq sürüşməsi nəticəsində ziyan çəkmiş sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün 36 mənzilli yaşayış binasının tikintisi məqsədilə 2,3 milyon manat, Qobustan şəhərində 48 mənzilli yaşayış binasının tikintisi üçün 3 milyon manat, Beyləqan şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və abadlıq-quruculuq işlərini davam etdirmək məqsədilə 3 milyon manat ayrılıb.

### Yolların, körpü və tunellərin tikintisi

Ötən ildə ölkəmizdə yol infrastrukturunun yenidən qurulması, yeni yolların, tunel və körpülərin tikintisi də davam etdirilib. Ümumiyyətlə, son 16 ildə ölkədə 16 min kilometr yol çəkilib.

Dövlət başçısı ötən il imzaladığı 13 sərəncama əsasən Prezidentin Ehtiyat Fondundan yolların, körpülərin tikintisi üçün 59,8 milyon manat vəsait ayırdı. Müxtəlif qəsəbə və kəndləri birləşdirən yollarda yenidənqurma işləri aparıldı.

Ardı 2-ci səh.

## Avstraliya İttifaqının General-Qubernatoru zati-aliləri cənab Devid Con Hörliyə

Hörmətli cənab General-Qubernator!

Avstraliya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Avstraliya İttifaqı arasındakı dostluq əlaqələrinin və əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2020-ci il*

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Elazığda baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2020-ci il*

## Prezident İlham Əliyev Türkiyədəki azərbaycanlı tələbələrin zəlzələ zonasından təxliyəsi haqqında tapşırıq verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən müvafiq qurumlar Türkiyədə baş vermiş zəlzələ zonasında təhsil alan azərbaycanlı tələbələrin təxliyə olunması istiqamətində tədbirlər görür.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

## Ermənistan işğal olunmuş ərazilərimizdəki abidələri "bərpa" etmək adı altında erməniləşdirmə siyasəti aparır

Son vaxtlar işğalçı Ermənistan və Dağlıq Qarabağdakı qeyri-qanuni rejim Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi və mədəniyyət abidələrini "bərpa" etmək adı altında erməniləşdirmə siyasəti aparır.

Bir müddət əvvəl Dağlıq Qarabağın memarlıq incisi sayılan Şuşadakı Yuxarı Gövhər Ağa məscidini "bərpa" edərək buranı "fars mədəniyyət mərkəzi" adlandıran rejim indi də XVIII əsrdə Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşir tərəfindən əsası qoyulan Şuşa Qalasını "bərpa" etməyi planlaşdırır. KİV-in yaydığı məlumatlara görə, gələcəkdə Ağdərə və Laçın rayonlarında yerləşən, Azərbaycan xalqına məxsus tarixi abidələrə qarşı da bu cür vandallıq ediləcəyi istisna olunmur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatında yer alıb.

Ardı 3-cü səh.




## Davos görüşlərində Azərbaycanın enerji sahəsində uğur və perspektivləri əsas mövzulardan oldu

Azərbaycanın həyata keçirdiyi neft-qaz və ixrac layihələri dünyanın diqqət mərkəzindədir. Ölkəmizin təşəbbüsü və liderliyi ilə gerçəkləşən "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirən layihə kimi yüksək dəyərləndirilir.

"Azəri-Çiraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi müddətinin 2050-ci ilədək uzadılması, "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinə başlanması karbohidrogen ehtiyatlarımızın hələ çox olduğunu göstərdi. Bunu müxtəlif kəşfiyyat mərhələlərində olan yeni yataqlarda aparılan işlər də təsdiqləyir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunda ölkəmizin bu sahədə fəaliyyəti ən çox bəhs edilən mövzulardan biri olub.

Ardı 3-cü səh.

## Kənd təsərrüfatında istehsalın artması əsasən məhsuldarlıq hesabına mümkün olub

Son illər Azərbaycanda kənd təsərrüfatı sahəsində böyük uğurlar əldə edilib. Buna səbəb həyata keçirilən dərin aqrar islahatlar və sahəyə mütəmadi verilən dövlət dəstəyidir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, Azərbaycan dövləti dünyada fermerlərə ən çox dəstək verən ölkədir. Bu səbəbdən də ölkəmizdə keçən il kənd təsərrüfatında məhsul istehsalı 14 faizdən çox artıb.

Prezident İlham Əliyev ötən ilin yekunlarına həsr olunmuş müşavirədə aqrar sektorda əldə olunan uğurları və görüləcək işləri qeyd edərək demişdir: "İqtisadiyyatın real sektorunun inkişafında kənd təsərrüfatının xüsusi rolu var...

Ardı 4-cü səh.





## Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir

Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan xalqların da nümayəndələri yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".

Sosiologiya lüğətində multikulturalizm bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir.

Ardı 5-ci səh.



# 67 sərəncam, 229 milyon manat vəsait

## Ötən il Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına mühüm sosial-iqtisadi layihələr gerçəkliyə çevrildi

| | |
|---|---|
| Abadlıq-quruculuq, yenidənqurma | 11 sərəncam, 50,3 milyon manat; |
| Körpü və yeni yolların inşası | 13 sərəncam, 59,8 milyon manat; |
| Yeni təhsil, xəstəxana tikintisi | 9 sərəncam, 21 milyon manat; |
| Aqrar sektorun inkişafı | 1 fərman, 6 sərəncam, 17,84 milyon manat; |
| KİV-ə, dini qurum və icmalara dəstək | 6 sərəncam, 13,05 milyon manat; |
| Sosial təminat | 7 sərəncam, 23,3 milyon manat; |
| Mədəniyyət, incəsənət və idman | 8 sərəncam, 17,35 milyon manat; |
| Təbii fəlakət və dövlət qayğısı | 7 sərəncam, 26 milyon manat; |

*Əvvəli 1-ci səh.*

Bakı şəhəri Binəqədi rayonunun M.Ə.Rəsulzadə, Biləcəri, Binəqədi, Xocəsən və 28 May qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri üçün 8,7 milyon manat, Suraxanı rayonunun 17 min 800 nəfər əhali yaşadığı Yeni Suraxanı qəsəbəsinin daxili yollarının əsaslı təmiri üçün 7,8 milyon manat, Sabunçu rayonunun Pirşağı, Zabrat, Ramana və Maştağa qəsəbələri ərazisində yeni infrastruktur layihələrinin həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 6 milyon manat ayrıldı.

Eləcə də Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna, Qala, Mərdəkan, Şağan, Şüvəlan və Türkan qəsəbələri ərazisində yeni infrastruktur layihələrinin həyata keçirilməsi məqsədilə 6 milyon manat, o cümlədən avtomobil yollarının yenidən qurulması üçün 3 milyon, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün isə ilkin olaraq 3 milyon manatın ayrılması ilə bağlı dövlət başçısı tərəfindən sərəncam imzalandı.

Gəncə şəhərinin Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektlərinin, Museyib Bağırov, Mirzə Abbas Abbaszadə və Əlövsət Məmmədov küçələrinin Gəncəçay çayı ilə kəsişməsində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpünün bərpası məqsədilə 6,4 milyon manat, Qobustan rayonunun Bakı-Şamaxı-Yevlax (88 km) Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi məqsədilə ilkin olaraq 2 milyon manat, 8 min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi məqsədilə isə 3 milyon manat sərf olunub.

Bundan başqa, Mingəçevir şəhəri ərazisində ümumi uzunluğu 11,9 kilometr olan, "Günəşli", "Bağlar", "Üçxoz" və "Tingçilik" yaşayış massivlərini şəhərlə birləşdirən avtomobil yollarının əsaslı təmiri üçün 2,5 milyon manat, Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə 3,5 milyon manat, Xırdalan şəhərində ümumi uzunluğu 5,4 kilometr olan Nizami, Hacı Zeynalabdin Tağıyev, Səttar Bəhlulzadə və Qalubiyyə küçələrinin əsaslı təmiri məqsədilə 3 milyon manat, həmçinin Xırdalan şəhərində ümumi uzunluğu 5,1 kilometr olan avtomobil yollarının əsaslı təmiri məqsədilə 3,9 milyon manat ayrılıb.

Qəbələdə 20 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisinə və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpasına ilkin olaraq 2 milyon manat, 35 min nəfər əhalinin yaşadığı 24 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (53 km)-Zərdab avtomobil yolunun yenidən qurulmasına 5 milyon manat yönləndirilib.

Yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı bu məsələyə toxunaraq bildirdi ki, 2019-cu ildə 1300 kilometr yol çəkilib: "Biz təqribən min kilometr planlaşdırırdıq, ancaq il ərzində Prezidentin Ehtiyat Fondundan və dövlət büdcəsindən yaranmış əlavə gəlirlər hesabına 1300 kilometr uzunluğunda yol çəkdik".

Prezident bu il də həm magistral, həm də şəhərlərarası, kəndlərarası və qəsəbədaxili yollarla bağlı böyük layihələrin icra ediləcəyini söylədi. Bildirdi ki, bu il Bakı-Sumqayıt-Rusiya sərhədi yeni yolunun, Gəncə-Gürcüstan sərhədi yolunun, Astara-İran sərhədi yolunun tikintisi nəzərdə tutulub.

### Sosial təminat, yeni obyektlərin inşası

Bütün dövrlərdə əhalinin aztəminatlı təbəqəsinin, veteranların sosial rifah halının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində ciddi addımlar atan cənab Prezident ötən il də bu istiqamətdə mühüm sərəncamlar imzaladı.

Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi, habelə birliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Prezidentin Ehtiyat Fondundan ictimai birliyə 1 milyon manat ayrıldı.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisəsi, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat alması, tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması üçün 5 milyon manat sərf olundu.

Bundan başqa, Prezident sərəncam imzalayaraq 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000 manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi üçün ehtiyat fondundan 5 milyon manat ayırdı.

Müharibə veteranlarına dövlət qayğısını artırmaq məqsədilə Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına 300 min manat verildi.

Dövlət başçısı Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi üçün 6 milyon manat, eləcə də Sumqayıt şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə 1 milyon manat ayrılması ilə bağlı 2 sərəncam imzalayıb. Həmçinin "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin (günərzi, sosial reabilitasiya, psixoloji, surdoloji və digər dəstək xidmətləri) genişləndirilməsi məqsədilə 5 milyon manat ayrılıb.

Beləliklə, sosial sahə üzrə imzalanan 7 sərəncama əsasən 23,3 milyon manat vəsait ayrılıb.

### Ümumtəhsil məktəblərinin, xəstəxanaların tikintisi, əsaslı təmiri və yenidənqurulması diqqət mərkəzində olub

Son illərdə ölkəmizdə təhsilin inkişafına göstərilən qayğı sayəsində bu sahədə böyük uğurlar əldə olunub. Ötən ildə dövlət başçısının sərəncamlarına əsasən Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına regionlarda yeni-yeni məktəb və körpələr evi-uşaq bağçaları tikilib, mövcud təhsil ocaqlarında abadlıq və yenidənqurma işləri aparılıb.

İlk olaraq ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi məqsədilə Gənclər Fonduna 4 milyon manat ayrılıb.

Sumqayıt şəhərində 1 nömrəli şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi məqsədilə Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 2 milyon manat, Ağdaş rayonunun Orta Ləki kəndində 480 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün 1 milyon, Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün 2 milyon manat, Qobustan rayonunun Sündü kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün ilkin olaraq 2 milyon manat ayrıldı.

Dövlət başçısının sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 1 milyon manatın ayrılması qərara alındı.

Bu ildən başlayaraq ölkəmizdə icbari-tibbi sığortanın tətbiqinə də start verilib. Müxtəlif şəhər və rayonlarda, qəsəbələrdə xəstəxanaların əsaslı təmiri prosesi ötən il də davam etdirilib. Prezidentin sərəncamlarına əsasən 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə ehtiyat fondundan ilkin olaraq 5 milyon manat, Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan 2 nömrəli Doğum Evinin əsaslı təmiri məqsədilə isə ilkin olaraq 2 milyon manat, Salyan şəhərində Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə ilkin olaraq 2 milyon manat ayrıldı.

### Təbii fəlakət, "Diqlas"da yanğın və ziyanın aradan qaldırılmasına Prezident qayğısı

2019-cu il fevralın 5-də episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarca fərdi yaşayış evləri qəzalı vəziyyətə düşdü, sosial və infrastruktur obyektlərinə ziyan dəydi.

Fevralın 7-də dərhal zəlzələ bölgəsinə yollanan Prezident İlham Əliyev bütün işləri dövlət nəzarətinə götürəcəyini söylədi və əhaliyə tez bir zamanda yeni mənzillərin tikilib təhvil verilməsi üçün bir neçə sərəncam imzaladı.

Öncə Prezident Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün ehtiyat fondundan ilkin olaraq 2 milyon manat vəsait ayırdı.

Dövlət başçısı martın 7-də "Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" yenidən sərəncam imzaladı və ehtiyat fondundan 11 milyon manat - 5 milyon manat Fövqəladə Hallar Nazirliyinə, 2 milyon manat yaşayış evlərinin təmiri üçün isə hər üç rayonun icra hakimiyyətlərinə ayrıldı.

Prezidentin sentyabrın 13-də dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə Ağsu və Şamaxı Rayon İcra hakimiyyətlərinin hər birinə 2 milyon manat vəsaitin ayrılması, iki ay sonra isə noyabrda Prezident Şamaxı və Ağsu rayonlarında yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün əlavə olaraq hər iki rayonun icra hakimiyyətinə 3 milyon manatın ayrılması ilə bağlı sərəncamlar imzaladı.

Hər zaman verdiyi vədə sadiqliyini nümayiş etdirən, dar gündə, şad gündə vətəndaşın yanında olan dövlət başçısı zəlzələ nəticəsində evləri dağılmış sakinlərə əvvəlkindən daha möhtəşəm mənzillər tikdirdi. Təbii fəlakətin fəsadlarının aradan qaldırılması istiqamətində Prezident 6 sərəncam imzaladı və bu işlərə ümumilikdə 23 milyon manat vəsait yönləndirildi.

Azərbaycan dövlətinin həmişə öz vətəndaşının yanında olmasını təsdiqləyən digər fakt isə Bakının Nizami rayonundakı "Diqlas" Ticarət Mərkəzində baş verən yanğın nəticəsində zərər çəkmiş sahibkarlara göstərilən münasibət oldu.

Prezident İlham Əliyev hadisəyə dərhal reaksiya verdi və bununla bağlı operativ müşavirə keçirdi. Bunun ardınca dövlət başçısı yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədilə Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 3 milyon manat vəsait ayırdı.

### Aqrar sektorun inkişafı hər zaman diqqət mərkəzindədir

Son 16 ildə Azərbaycanda aqrar sektor da böyük inkişaf yolu keçib. Ölkədə yaradılan aqro və texnoparklar, əkin sahələrinin suvarılması üçün tikilən su anbarları və kanalları, fermerlərə dövlət qayğısı sayəsində kənd təsərrüfatında böyük canlanma ilə müşahidə olundu. Subartezian quyularının qazılması, su və kanalizasiya sistemlərinin yenidən qurulması prosesinə isə 7 sərəncamla 17,84 milyon manat vəsait ayrıldı.

Naxçıvan Muxtar Respublikası ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya tələbatının ödənilməsi üçün subartezian quyularının layihələşdirilməsi və qazılması məqsədilə Prezidentin Ehtiyat Fondundan 2,25 milyon manat, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə fərmana əsasən isə 1 milyon manat ayrıldı.

"Yuxarı Şirvan kanalının Türyan çayı ilə kəsişməsindəki dükerin yumaya qarşı mühafizəsi üçün barraj-fiksatorun təmir-bərpası"nın başa çatdırılması üçün 790 000 manat, "Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri"nin başa çatdırılması üçün 7 milyon manatın ayrılması ilə bağlı sərəncam da imzalandı.

Həmçinin Şamaxı rayonunda 2500 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 8 kiçik sututarında zəruri təmir-bərpa işlərinin aparılması üçün ilkin olaraq 300 min manat, Yevlax şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması məqsədilə 5 milyon, Astara rayonunun Diqo, Dolu və Sekaşan kəndlərinin elektrik enerjisi ilə təchizatını təmin etmək məqsədilə isə Prezidentin Ehtiyat Fondundan 1,5 milyon manat ayrıldı.

### Mədəniyyət, incəsənət və idman - 8 sərəncam, 17,35 milyon manat vəsait

Ötən il ölkəmizdə "Nəsimi ili" elan edildi. Prezidentin sərəncamları əsasında bu məqsədlə müxtəlif tədbirlər keçirildi. "Nəsimi ili" çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirəcəyi tədbirlərin maddi təminatı üçün Prezidentin Ehtiyat Fondundan 1 milyon manat ayrıldı.

Dövlət başçısı mədəniyyət və incəsənət xadimləri ilə görüşüb mövcud durum və problemlərlə maraqlandı. Bunun ardınca Prezident sərəncamlar imzaladı.

Azərbaycan yaradıcılıq ittifaqları və birliklərinin müraciətlərini nəzərə alaraq, onların fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədilə Prezidentin Ehtiyat Fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 650 min manat, Azərbaycan Rəssamlar İttifaqına 350 min manat, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına 300 min manat, Azərbaycan Memarlar İttifaqına 250 min manat, Azərbaycan Teatr Xadimləri İttifaqına 250 min manat və Azərbaycan Aşıqlar Birliyinə 250 min manat verildi.

Prezident teatr xadimlərinin müraciətini də nəzərə alaraq Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədilə sərəncam imzaladı. Sərəncama əsasən, Mədəniyyət Nazirliyinə 1,8 milyon manat ayrıldı.

Prezident İlham Əliyev mədəniyyətə dövlət qayğısının daha da artırılması, kino sənəti ənənələrinin yaşadılması və film istehsalı sahəsinin modernləşdirilməsi ilə bağlı sərəncam imzaladı. Sərəncama əsasən, dövlət sifarişi ilə film istehsalını və gənc kinematoqrafçıların yaradıcılığının dəstəklənməsi ilə bağlı layihələrin həyata keçirilməsi və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Mədəniyyət Nazirliyinə 1,2 milyon manat verildi.

Bundan başqa, Yazıçılar Birliyinin Şüvəlandakı Səməd Vurğun adına Yaradıcılıq Evinin rekonstruksiyası və təmiri üçün Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 3 milyon manat, Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasının əsaslı təmiri və yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə 2 milyon manat vəsait ayrıldı.

Azərbaycanda Paralimpiya hərəkatının daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasını möhkəmləndirmək üçün 500 min manat, Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun yenidən qurulması məqsədilə ilkin olaraq 5 milyon manatın ayrılması ilə bağlı da sərəncamlar imzalandı.

Beləliklə, mədəniyyət, incəsənət və idmanın inkişafı itiqamətində ötən il Prezidentin Ehtiyat Fondundan ümumilikdə 8 sərəncama əsasən 17,35 milyon manat vəsait ayrıldı.

### KİV-ə və dini qurumlara dəstək

Azərbaycan dövləti kütləvi informasiya vasitələrinin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır, bu sahədə meydana çıxan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir.

Hər il dövlət başçısı ölkədə nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna vəsait ayırır. Ötən il də bu məqsədlə dövlət başçısı 1 milyon manatın ayrılması ilə bağlı sərəncam imzaladı.

Maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir avadanlıqla təchiz olunması üçün "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə ehtiyat fondundan 3 milyon manat ayrıldı.

Bununla yanaşı, ölkədə özəl teleradio yayımçılarının Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xaricdə yaşayan azərbaycanlıların öz vətənləri haqqında daha dolğun məlumatlandırılması, Azərbaycan xalqının mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin stimullaşdırılması, həmçinin texniki imkanlarının artırılması və əhatə dairəsinin daha da genişləndirilməsi zəruriliyini nəzərə alaraq özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə 3 milyon manat ayırdı. Digər sərəncamla isə ümumölkə teleradio yayımçılarının peyk vasitəsilə xarici ölkələrdə yayımını təşkil etmək üçün Prezidentin Ehtiyat Fondundan "Azərkosmos"a 2 milyon manat verildi.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2019-cu ildə fəaliyyətinin təmin olunması və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə isə 800 min manat ayrıldı.

Həmçinin qeyd edək ki, Şərqlə-Qərbin qovuşduğu məkan adlandırılan Azərbaycan həm Avropa İttifaqı, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan bir ölkədir. Azərbaycanı "İslam mədəniyyətinin paytaxtı" da adlandırırlar. Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə fəaliyyət göstərən dini icmalara vəsaitlərin ayrılması da bunu bir daha təsdiqləyir.

Ötən il Prezident İlham Əliyev mayın 24-də Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında sərəncam imzaladı. Sənədə əsasən, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat vəsait ayrıldı.

Dövlət başçısının 6 sərəncamı ilə bu sahələrə ayrılan vəsaitin həcmi 13,05 milyon manat təşkil etdi.

Göründüyü kimi, dövlət başçısının ötən il ölkədə bir çox sosial-iaşə obyektlərinin inşası, yenidən qurulması, aztəminatlı ailələrin rifah halının yaxşılaşdırılması, Azərbaycanda və xaricdə beynəlxalq tədbirlərin keçirilməsi, enerji təminatı və digər sahələrin inkişafı üçün 2019-cu ildə imzaladığı 67 sərəncam, 1 fərmanla Prezidentin Ehtiyat Fondundan ayrılan ümumi məbləğ 228 milyon 640 min manat təşkil edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***









# Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru ADA Universitetində mühazirə oxuyub



Yanvarın 25-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MGIMO) rektoru, akademik Anatoli Torkunov ADA Universitetində mühazirə ilə çıxış edib. ADA Universitetindən bildirilib ki, A.Torkunov müasir beynəlxalq münasibətlər sahəsində cərəyan edən yeni proseslərlə bağlı analizlərini diplomatik korpusun nümayəndələri, tələbələr və bu sahəni tədqiq edən peşəkarlarla bölüşüb.

Tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev MGIMO-nun yalnız beynəlxalq münasibətlər sahəsində deyil, həm də digər elmlər sahəsində mütəxəssislər yetişdirdiyini diqqətə çatdırıb. Hafiz Paşayev deyib: “ADA Universiteti MGIMO Universiteti ilə əməkdaşlığa önəm verir. Bu səbəbdən də MGIMO ilə maliyyə sahəsində ikili diplom proqramı təqdim edərək bu sahədə mütəxəssislərin yetişdirilməsini hədəfləyirik”.

Daha sonra MGIMO Universitetinin rektoru, akademik Anatoli Torkunov çıxış edərək ADA Universiteti ilə birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, MGIMO Universitetinin beynəlxalq münasibətlərlə yanaşı, aqrar, idman və digər sahələrdə də mütəxəssislər yetişdirmək üçün əməkdaşlığı genişləndirdiyini, eyni zamanda, süni intellekt sahəsini də tədqiq etdiyini diqqətə çatdırıb. “Müasir beynəlxalq münasibətlər sahəsində baş verən parametr dəyişikliyini nəzərə alaraq, bu dövrü postbipolyar dövr kimi də xarakterizə etmək olar” deyə akademik A.Torkunov qeyd edib.

Öncəki illərdə müşahidə etdiyimiz klassik diplomatiya ilə hazırkı diplomatiya anlayışları arasında böyük fərqin olduğunu bildirən akademik informasiya sahəsində özünü göstərən texnoloji inqilab barədə ətraflı məlumat verib. O, informasiya sahəsindəki inqilabın süni intellekt anlayışını da özündə ehtiva etdiyini bildirib.

**AZƏRTAC**

# Qafqaz Müsəlmanları İdarəsinin sədri “Bakı-Moskva: mədəniyyətlərin dialoqu” konfransının iştirakçıları ilə görüşüb





Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Moskva hökumətinin və TASS informasiya agentliyinin dəstəyi ilə təşkil olunan “Bakı-Moskva: mədəniyyətlərin dialoqu” konfransının iştirakçıları ilə növbəti görüş yanvarın 25-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin iqamətgahında keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müasir dünyada dinin çox böyük rol oynadığını, onun bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu vurğulayaraq deyib: “Din cəmiyyətlərdə kulturoloji rol oynayır, dini mədəniyyətdən ayırmaq mümkün deyil”.

Şeyxülislam qeyd edib ki, Rusiya və Azərbaycanda dini-mənəvi irsə yüksək səviyyədə hörmət bəslənilir, tolerantlıq ənənələri qədim tarixə malikdir. O, deyib: “Ölkəmizdə məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da fəaliyyət göstərir, yeni məbədlər tikilir. Azərbaycanda müxtəlif dinlərə mənsub olan insanlar dövlətin qayğı və himayəsini eyni dərəcədə hiss edirlər. Bu sözləri Rusiyada dini konfessiyaların nümayəndələrinə münasibət barədə də deyə bilərəm. Ölkələrimizin dövlət başçılarının sıx səmimi münasibətləri bu prosesdə mühüm amildir. Rus Pravoslav Kilsəsi həmişə, o cümlədən müsəlmanlara münasibətdə birləşdirici, mühafizəedici rol oynayıb. Zati-müqəddəsləri Patriarx Kirill bu işə böyük zəhmət sərf edib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zati-müqəddəsləri Patriarx Kirillə böyük hörmət bəsləyirlər. O da öz növbəsində Azərbaycana, Azərbaycan xalqına eyni dərəcədə hörmətlə yanaşır”.

Qafqaz Müsəlmanları İdarəsinin sədri xatırladıb ki, keçən ilin noyabrında Azərbaycanın paytaxtında Dünya dini liderlərinin II Bakı Zirvə Görüşü keçirilib. Həmin tədbirin işində dünyanın 5 qitəsinin 70-dən çox ölkəsinin, 25 ənənəvi dininin və dini məzhəblərin nümayəndələri iştirak ediblər: “Dünya dini liderlərinin Zirvə görüşündə ən nüfuzlu nümayəndə heyəti Rusiyadan gəlmişdi. Patriarx Kirill və mən MDB ölkələri Dinlərarası Şurasının həmsədrləriyik”.

Şeyxülislam Allahşükür Paşazadə Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğluna yubileyləri münasibətilə hədiyyələr təqdim edib.

Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək deyib: “Biz fəxr edirik ki, Azərbaycanda bütün dini konfessiyaların nümayəndələri arasında qarşılıqlı hörmət, tolerantlıq, əsl əməkdaşlıq abhavası yaradılıb. Gördüyünüz kimi, burada Rus Pravoslav Kilsəsinin, Katolik Kilsəsinin, yəhudi icmasının rəhbərləri iştirak edirlər. Bu, ölkəmiz üçün reallıqdır. Mənim fikrimcə, bu məsələdə Prezident İlham Əliyevin və Qafqaz Müsəlmanları İdarəsi rəhbərliyinin yürütdüyü siyasət həlledici və çox mühüm rol oynayır”.

Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman xüsusi qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanda multikultural dəyərlərin qorunub saxlanmasında müstəsna rol oynayıb. Məhz Ulu Öndər xalqın öz gücünə inamını qaytarmağa, qeyri-titul millətlərin və dini icmaların hüquqlarına və mədəni-mənəvi dəyərlərinə hörmətlə yanaşmaq prinsiplərinə dönmədən riayət edilməsinə nail olub. Prezident İlham Əliyev Ulu Öndərin siyasi xəttini uğurla davam etdirir.

Azərbaycanda müxtəlif millətlərə və dinlərə mənsub insanlar arasında qarşılıqlı anlaşma və hörmətin bərqərar olmasında şeyxülislam Allahşükür Paşazadənin də mühüm rol oynadığı qeyd edilib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd edib ki, ölkələrimizdə dini mənəvi irsə hörmət yüksək səviyyədədir, tolerantlıq ənənələri qədim tarixə malikdir. Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda din ilə dövlət arasında münasibətlərin düzgün qurulduğunu vurğulayan səfir bildirib ki, etnik və dini müxtəliflik ölkəmizin milli sərvətidir. Polad Bülbüloğlu Ümummilli Lider Heydər Əliyevin Şeyxülislam Allahşükür Paşazadəyə səmimi münasibəti barədə xatirələrini də bölüşüb.

Tədbir ziyafətlə davam edib.

# Azərbaycan deputatları AŞ PA-nın qış sessiyasında iştirak edəcəklər

Yanvarın 27-dən 31-dək Fransanın Strasburq şəhərində Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası keçiriləcək.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sessiyada Milli Məclisin AŞ PA-dakı daimi nümayəndə heyətinin rəhbəri, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edəcək. Nümayəndə heyətinə deputatlardan Sevinc Fətəliyeva, Sahibə Qafarova, Rafael Hüseynov, Asim Mollazadə, Sabir Hacıyev və Naqif Həmzəyev daxildir.

Sessiyada Büronun və Daimi Komitənin görülmüş işlərə dair hesabatı dinləniləcək, Belarusda keçirilmiş parlament seçkilərinin nəticələri, Polşada demokratik institutların fəaliyyəti, Avropada jurnalistlərin təhlükəsizliyi, media azadlığı və digər mövzularda müzakirələr aparılacaq.

Azərbaycan deputatları müzakirələrdə çıxış edəcək, gündəlikdəki məsələlərə münasibət bildirəcəklər.

Sessiya çərçivəsində yanvarın 28-də Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir də keçiriləcək.

# Davos görüşlərində Azərbaycanın enerji sahəsindəki uğur və perspektivləri əsas mövzulardan oldu

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb. OPEC-in baş katibi beş il bundan əvvəl Azərbaycanın dövlət başçısının dünya iqtisadi forumundakı çıxışını xatırladıb. Məlumdur ki, o zaman Azərbaycan Prezidenti OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış etmişdi. Həmin vaxta qədər dünya liderlərindən heç kəs belə bir təşəbbüs irəli sürməmişdi.

M.Barkindo bunu yüksək dəyərləndirərək deyib: “Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz... Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq”.

Ötən müddət Azərbaycanın qəbul edilmiş bütün qərarlara sadiq olduğunu göstərib. Hətta OPEC+ formatında görüşlərin biri Bakıda keçirilib. Bu günlərdə Davosda OPEC-in baş katibi ilə görüşündə Prezident İlham Əliyev bir daha bu məsələlərə toxunub və deyib: “Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu, belə də davam edəcək”.

Prezident İlham Əliyevin Davosda dövlət və hökumət başçıları, beynəlxalq şirkətlərin rəhbərləri ilə keçirdiyi bir sıra digər görüşlərdə də neft-qaz sektoruna aid işlər və perspektivlər geniş müzakirə olunub. BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşdə TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) artıq istifadəyə verildiyi və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) bu ilin sonunadək hazır olacağı qeyd edilib.

Söhbət zamanı “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparılıb. Bildirilib ki, bu ilin fevral ayında Bakıda “Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının nazirlər səviyyəsində görüşü keçiriləcək.

Qeyd edək ki, bu, Məşvərət Şurasının altıncı toplantısı olacaq. Əvvəlki toplantıların da hamısı Bakıda keçirilib. Bu faktın özü də “Cənub qaz dəhlizi” layihəsinin təşəbbüsçüsünün və aparıcı qüvvəsinin məhz Azərbaycan olduğunu təsdiqləyir.

Ölkəmizin neft-qaz sektorundakı əsas tərəfdaşlarından biri də Rusiyanın LUKOİL şirkətidir. Bu şirkətlə əməkdaşlıq uğurla davam edir. Davosda dövlətimizin başçısının LUKOİL-un prezidenti Vahid Ələkbərovla söhbəti həmin mövzuda oldu. İndi bu şirkət Azərbaycanın “Naxçıvan” və “Qoşadaş” yataqlarında iş aparacaq. Belə ki, Davosda həmin yataqların birgə işlənməsi məsələsi müzakirə olundu və bu barədə qərar qəbul edildi. Perspektiv strukturlar və SOCAR-LUKOİL əməkdaşlığı ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycanın dövlət başçısı Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə də görüşüb. İki ölkə arasında əlaqələrin inkişafı məsələləri müzakirə olunarkən neft-qaz sektorunda əməkdaşlıq imkanları da araşdırılıb və fikir mübadiləsi aparılıb.

Məlumdur ki, Azərbaycan neftinin və qazının dünyaya yolu qonşu Gürcüstandan keçir. Ölkəmizin karbohidrogen ehtiyatları dünya bazarlarına Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum marşrutları, “Cənub qaz dəhlizi” vasitəsilə çatdırılır. Davosdakı görüşlərində də Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri Giorgi Qaxariya ölkələrimizin iştirakı ilə qlobal və regional enerji, eləcə də nəqliyyat layihələrinin həyata keçirilməsinin önəmini vurğulayıblar.

Bir sözlə, Azərbaycan enerji sahəsində mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələri yaradıb. Davos görüşləri bu əlaqələrin daha da möhkəmləndiyini göstərdi və getdikcə genişləncəyinə inam yaratdı.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Ermənistan işğal olunmuş ərazilərimizdəki abidələri “bərpa” etmək adı altında erməniləşdirmə siyasəti aparır

*Əvvəli 1-ci səh.*

Bəyanatda deyilir: “Məlum olduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərində minlərlə mədəni, tarixi, dini abidəmiz erməni təcavüzünün qurbanı olub. Bu abidələrin bir qismi tamamilə yer üzündən silinib. Qalan abidələr isə yararsız vəziyyətə salınıb. Ermənistan torpaqlarımızı işğal etmək, xalqımızı soyqırımına məruz qoymaq, minlərlə insanı öz yurdundan didərgin salmaqla yanaşı, həm də tarixi abidələrimizi məhv edir. Hazırda Ermənistan bu ləkəni öz üzərindən silmək üçün yalançı və saxta “təmir-bərpa” işləri aparır.

Ermənistanın bu abidələri “bərpa” etmək planlarının arxasında duran çirkin məqsədlər təkcə bizi deyil, həm də beynəlxalq təşkilatları düşündürməlidir. Çünki bu tendensiyanın yayılması dünya mədəni-tarixi mirası üçün təhlükədir.

İşğal altında olan ərazilərimizdəki bütün abidələr ata-babalarımız tərəfindən ucaldılıb, bu abidələrin üzərində əcdadlarımızın əl izləri yaşayır. Ermənistanın işğalına son verildikdən və torpaqlarımıza geri qayıtdıqdan sonra bizə miras qalan abidələrimizə yenidən həyat bəxş etmək əsas vəzifəmizdən biri olacaq.

Bütün bunlar Ermənistanın UNESKO qarşısında götürdüyü öhdəliklərə zidd olmaqla yanaşı, bu ölkənin riyakar xislətini, beynəlxalq ictimaiyyəti aldatmaq, öz vandalizm əməllərinə mədəni-sivil don geyindirmək cəhdidir”.

# Salyanda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəb binası inşa olunub





Yanvarın 25-də Salyan rayonunun Ərəbqardaşbəyli kənd tam orta məktəbinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan yeni binasının açılışı olub.

Açılış mərasimində Heydər Əliyev Fondunun nümayəndələri, rayon icra hakimiyyətinin rəhbərliyi, təhsil şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, “Regional İnkişaf” İctimai Birliyinin könüllüləri, müəllim və şagirdlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Ərəbqardaşbəyli kənd tam orta məktəbi 1964-cü ildə inşa edilib. Birmərtəbəli məktəb binası qəzalı vəziyyətdə olduğundan yeni məktəb binasının tikintisi zərurəti yaranmışdı. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2019-cu ildə 180 şagird yerlik ikimərtəbəli binanın tikintisi həyata keçirilib.

Məktəbdə 14 sinif otağı ilə yanaşı laboratoriyalar, kompüter otağı, fənn kabinetləri, tibb otağı, kitabxana, idman və akt zalı, yeməkxana var.

Binada istilik sistemi qurulub, məktəb inventar və texniki vasitələrlə təchiz edilib.

1084 nəfər əhalisi olan Ərəbqardaşbəyli kəndindəki yeni məktəbdə hazırda 117 şagird təhsil alır.

Qeyd edək ki, bu gün yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır.

Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

Təhsilin inkişafına göstərilən diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir. Təkcə ötən il ölkə ərazisində 84 məktəb binası tikilib və ya təmir edilib.

## 9 fevral Milli Məclisə seçkilər günüdür

# Gəncədə keçirilən növbəti seminar seçki prosesində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunub





Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkil olunması, azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən Gəncədə keçirilmiş növbəti tədbir “Polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi”nə həsr olunub. AZƏRTAC xəbər verir ki, yanvarın 25-də keçirilən regional seminarda Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, rayon polis idarələrinin nümayəndələri iştirak ediblər.

Seminarda Mərkəzi Seçki Komissiyasının nümayəndələri tərəfindən polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə dair müxtəlif mövzularda çıxışlar dinlənilib.

Tədbirdə Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları mövzusunda çıxış edib.

Bildirilib ki, polisin ölkədə keçirilən seçki prosesində ictimai asayişin qorunması ilə əlaqədar fəaliyyəti Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən olunub.

Qeyd edilib ki, polisin səsvermə prosesində həm səsverməyədək, həm də seçki günü qanunvericiliklə təsbit edilmiş vəzifələri mövcuddur. Səsvermə günü hər hansı bir səsvermə otağında asayişin pozulması ilə əlaqədar müəyyən problemlər yaranarsa, səsvermə otağından 100 metr aralıda öz xidməti vəzifəsini yerinə yetirən polis əməkdaşı məntəqə seçki komissiyası sədrinin dəvəti ilə səsvermə otağına daxil olur və ictimai asayişin bərpası ilə bağlı fəaliyyətini həyata keçirir. Polis əməkdaşı səsvermə otağına daxil olduqda səsvermə prosesi dayandırılır və ictimai asayiş bərpa olunduqdan sonra isə qanunla müəyyən edilmiş qaydada səsvermə prosesi davam etdirilir.

Vurğulanıb ki, son bələdiyyə seçkiləri, yaxud ondan əvvəlki seçkilərdə polisin konkret fəaliyyəti ilə bağlı ciddi nöqsanlar müəyyən edilməyib.

Seminarda Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Hamlet Hümbətəliyevin “Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi” mövzusunda çıxışı dinlənilib.

Sonra Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin müdiri Rafiq Abbasov “Seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi” mövzusunda çıxış edib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Seçkilərin şəffaf keçirilməsi üçün bütün şərait yaradılıb



Gəncədə fəaliyyət göstərən 4 seçki dairəsini əhatə edən bütün məntəqələrdə fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir.

Ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən bu seçkilərə hazırlığın vəziyyətini öyrənmək məqsədilə 40 saylı Kəpəz II (Gəncə) seçki dairəsində olduq. Dairə seçki komissiyasının sədri İmamyar İsmayılovla söhbətimizdən məlum oldu ki, bu siyası kampaniyaya ciddi hazırlıq işləri görülüb. Seçkilərin şəffaf və demokratik keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Həmin gün dairəni əhatə edən ərazidə 42 min 90 nəfər vətəndaş seçkilərdə iştirak etməlidir. 10 nəfər deputatlığa namizəd qeydə alınmışdır. Onlardan bir nəfəri Yeni Azərbaycan Partiyasından, qalanları isə öz təşəbbüsü ilə namizədliyini irəli sürmüşlər.

Qeyd edək ki, dairəni əhatə edən məntəqələrdə 27 nəfər ilk dəfə səs verənlər, 2 nəfər isə yaşı 100-ü ötənlərdir. Yaşı bir əsri haqlayan Fərman İmanov 24 nömrəli məktəbdə fəaliyyət göstərən 5 saylı məntəqədə səs verməlidir. Öyrəndik ki, parlament seçkiləri ilə əlaqədar məntəqə üzvləri onun evində olmuş, səhhəti ilə maraqlanmışlar. Hələ də gümrah olan Fərman kişi onlara deyib ki, fevralın 9-da özü gəlib məntəqədə səs verəcək.

Yaşı 100-ü keçmiş Çimnaz İbrahimova da seçkilərdə iştirak etmək arzusundadır. 37 nömrəli məktəbdə yerləşən 23 saylı seçki məntəqəsində səs verəcək Çimnaz nənə söhbət zamanı dedi ki, parlament seçkiləri ölkənin həyatında çox önəm daşıyır. Axı ölkənin idarə olunmasında qanunlar əsas rol oynayır. Milli Məclis isə bu qanunları yaradandır. Odur ki, gərək parlamentə ağıllı, savadlı və dünyagörüşlü adamları seçək ki, sonradan peşiman olmayaq.

Seçkilərin şəffaflığını təmin etmək üçün 30 məntəqədən 11-də veb-kamera quraşdırılmışdır. Bundan başqa, qeydiyyata alınmış 254 müşahidəçinin seçkilərin gedişini izləməsi üçün hər cür şərait yaradılıb. Namizədlərin hamısına təbliğat kampaniyası aparmaları üçün eyni şərait yaradılıb. Ərazinin iki yerində açıq və qapalı yerlər ayrılmışdır. Seçkilərdə fiziki qüsurlu insanların rahatlığı üçün də şərait yaradılıb. Belə ki, bütün məntəqələrdə pantus quraşdırılmışdır.

Məntəqə seçki komissiyasının sədrləri, katibləri və üzvləri treninqlərdə fəal iştirak etmişlər. Onlar seçkiyə hazırlıq, sənədlərin saxlanılması, qeydiyyatdan çıxma vəsiqələrinin verilməsi, bildirişlərin paylanması qaydaları, seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqat üçün şəraitin yaradılması, yerli icra və bələdiyyə qurumlarının seçki komissiyaları ilə səmərəli və qarşılıqlı əlaqələrinin qurulması qaydaları ilə əlaqədar ətraflı bilik əldə etmişlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***




# Kənd təsərrüfatında istehsalın artımı əsasən məhsuldarlıq hesabına mümkün olub



Əvvəli 1-ci səh.

Növbəti dövrdə kənd təsərrüfatı emalına biz böyük diqqət göstərməliyik. Çünki bizim kənd təsərrüfatı istehsalımız artır. Bizim ənənəvi sahələrimiz inkişaf edir və bərpa olunur və yeni kənd təsərrüfatı sahələri fəaliyyətə başlayır. Burada kənd təsərrüfatının birbaşa sənaye ilə uzlaşması var. Misal üçün, keçən il meyvə-tərəvəz istehsalı böyük dərəcədə artıbdır. Bizim kifayət qədər emal müəssisələrimiz olmalıdır. Onlar bizdə kifayət qədər deyil. O emal müəssisələri imkan vermir ki, biz öz meyvə-tərəvəzimizi daha da böyük həcmdə emal edək və hazır məhsul kimi ixrac edək".

Dünya təcrübəsi göstərir ki, yalnız hazır məhsul satmaqla daha böyük gəlir əldə etmək mümkündür. Çünki xammalın qiyməti də aşağı olur, üstəlik, onu saxladıqca daha çox itki yaranır. Bu üzdən hazır məhsulun satılması istehsalçılar üçün, eləcə də ölkə üçün sərfəlidir.

Məlumdur ki, son bir neçə ildə Prezidentin təşəbbüsü ilə kənd təsərrüfatında olan ənənəvi sahələrin yenidən dirçəldilməsinə başlanılıb. Ötən müddətdə bu sahədə böyük uğurlar qazanılıb. Ancaq proses hələ başa çatmayıb, qarşıdakı illərdə nailiyyətlər daha çox olacaq. Məsələn, keçən il dövlətin verdiyi dəstək sayəsində üzümçülükdə məhsuldarlıq 25 faiz artıb və 190 min tondan çox üzüm yığılıb.

Ölkəmizdə baramaçılığın tarixi qədimdir. Lakin məlum səbəblər üzündən bu sahədə, demək olar ki, məhsul istehsal olunmurdu. Belə ki, 2015-ci ildə ölkə üzrə cəmi 200 kiloqram barama əldə edilmişdi. Ancaq keçən il 294 min ton barama istehsal olunub. Bu da böyük istehsal təcrübəsinə malik "Şəki İpək" kombinatının yenidən fəaliyyətə başlamasına imkan yaradıb. Artıq yüz minlərlə insan barama istehsalından gəlir əldə edərək güzəranını yaxşılaşdırır.

Aqrar sektorda taxılçılığın inkişafına xüsusi diqqət yetirilir. Çünki ərzaq təhlükəsizliyində buğda istehsalı mühüm əhəmiyyətə malikdir. Torpaq sahələrindən daha səmərəli istifadə etməklə məhsuldarlığın çoxalması sayəsində taxıl istehsalı ildən-ilə artır. Ötən il 3 milyon 538 min ton məhsul istehsal olunub ki, bu da 2018-ci ilə nisbətən 6,9 faiz çoxdur. Buğdanın məhsuldarlığı ölkə üzrə təxminən 32,4 sentner təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 2 sentner çoxdur.

Yola saldığımız ildə digər sahələrdə də böyük uğurlar qazanılıb. Pambıqçılıqda ümumi məhsul artımı 26,4, məhsuldarlıq 67,6 faiz çox olub. Eyni zamanda günəbaxan istehsalı 43,3, kartof istehsalı 11,7, tərəvəz istehsalı 12,7, bostan məhsullarının istehsalı 11,4, meyvə-tərəvəz istehsalı 8,8 faiz artıb. Heyvandarlıqda diri çəkidə ət istehsalı 3, süd 2,4, yumurta 9, yun 1,6 faiz çox olub.

Cari ildə fermerlərin toxum, gübrə və texnikaya əlçatanlığını asanlaşdırmaq, bu sahədə olan bürokratik əngəlləri aradan qaldırmaq üçün səy göstəriləcək. Fermerlərin kiçik həcmli kreditlərə çıxışını asanlaşdırmaq üçün müvafiq tədbirlər görülür. Məqsəd kənd təsərrüfatının inkişafını stimullaşdırmaqla məhsul istehsalını artırmaqdır.

Bundan əlavə, istehsalın təşviqi istiqamətində görülmüş işlər kənd təsərrüfatı məhsullarının ixracını artırır. Belə ki, aqrar sektorun güzəştli şərtlərlə kreditləşdirilməsi, istehsalda müasir texnologiyaların tətbiqi meyvə-tərəvəz, ipək, tütün və s. kimi kənd təsərrüfatı məhsullarının ixracını xeyli artırıb. Təsadüfi deyil ki, ötən il qeyri-neft məhsullarının ixracında üstünlük təşkil edən üç məhsuldan ikisi kənd təsərrüfatına məxsusdur. Ümumilikdə isə ixracatda kənd təsərrüfatı məhsullarının çəkisi digər qeyri-neft məhsullarının çəkisindən yüksəkdir. Bu da aqrar sektor hesabına daha çox valyuta əldə etməyə imkan verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ağdamda kənd təsərrüfatının inkişafı ilə bağlı qarşıda duran vəzifələr müzakirə edilib

Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilən müşavirədə 2019-cu ildə kənd təsərrüfatının inkişafı ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, inzibati ərazi dairələri üzrə nümayəndələrin, bələdiyyə sədrlərinin, aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin, fermerlərin, kənd təsərrüfatı mütəxəssislərinin iştirak etdiyi müşavirədə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov ölkəmizdə kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısından, rayonda aqrar sahənin inkişafını təmin etmək üçün qarşıda duran vəzifələrdən danışıb.

Rayon icra hakimiyyəti başçısının müavini Allahverən Əliyev çıxışında rayonda aqrar sahənin vəziyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, rayon iqtisadiyyatında əsas yer tutan kənd təsərrüfatının inkişafı 2019-cu ildə də davam edib. Kəndli fermerlər və torpaq mülkiyyətçiləri ötən il 47 min 660 ton buğda, 7870 ton arpa, 6025 ton kartof, 13 min 244,7 ton şəkər çuğunduru, 105 min 441 ton tərəvəz istehsal ediblər ki, bunlar da əvvəlki illə müqayisədə xeyli çoxdur.

Diqqətə çatdırılıb ki, cəbhə bölgəsində yerləşən Ağdam rayonunda da baramaçılığın və pambıqçılığın keçmiş şöhrətinin qaytarılması istiqamətində mühüm addımlar atılır. İpəkqurdunun yem bazasını təmin etmək üçün 2019-cu ildə rayon ərazisində Çin Xalq Respublikasından gətirilmiş 44 min 500, həmçinin 14 min 600 ədəd yerli tut tingi əkilib. Ötən təsərrüfat ilində 17,1 ton barama, 7315,7 ton pambıq tədarük edilib.

Müşavirədə qeyd edilib ki, rayonun təbii su mənbələri işğal altında qaldığı üçün əkinlərin suvarma suyuna olan tələbatının ödənilməsi əsasən subartezian quyuları vasitəsilə həyata keçirilir. Rayonun əkin sahələri 952 subartezian quyusu, 4 nasos stansiyası, 4 suyığıcı göl, 11 kəhriz vasitəsilə suvarma suyu ilə təmin edilir. Rayon əhalisinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə hər il yeni subartezian quyuları qazılır.

Məlumat verilib ki, 2020-ci ilin məhsulu üçün rayonda 22 min 100 hektar sahədə şum aparılıb, 15 min 750 hektar sahədə dən və yaşıl yem üçün payızlıqlar səpilib. Bunun 12 min 092 hektarını buğda, 2255 hektarını dən üçün arpa, 1403 hektarını isə xəsil arpa təşkil edir.

Müşavirədə aidiyyəti qurumların rəhbərləri və fermerlər çıxış edərək, aqrar sahənin inkişafı və bəzi problemlərdən söz açıb, fikir və təkliflərini bildiriblər.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov kənd təsərrüfatının inkişafı, qarşıya çıxan çətinliklərin aradan qaldırılması ilə bağlı aidiyyəti təşkilatların rəhbərlərinə tapşırıq və tövsiyələrini verib.

## Əcnəbi tələbələr Qarabağlar kəndindəki Türbə Kompleksi ilə tanış olublar

Naxçıvan Dövlət Universitetində təhsil alan əcnəbi tələbələr Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar Türbə Kompleksi ilə tanış olublar.

Universitetin televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinə istinadən AZƏRTAC xəbər verir ki, burada tələbələrə qədim tarixi abidə haqqında məlumat verilib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli sərəncamına uyğun olaraq türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa olunub.

Qeyd olunub ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə və onları birləşdirən baştağ, xanəgah və türbədən ibarətdir. Zaman keçdikcə dağıntıya məruz qalan kompleksin əsasını Naxçıvan memarlıq məktəbinin incilərindən olan Qarabağlar Türbəsi təşkil edir. Qülləvari xatirə tikintilərinə aid olan türbə on iki yarımsilindrin birləşməsindən ibarətdir. Diametri 10 metrə yaxın olan, hazırkı vəziyyətdə hündürlüyü 16 metrə çatan Qarabağlar Türbəsinin 4 baştağı vardır. Baştağlarının dördünün də baş tərəfində müqəddəs "Qurani-Kərim"in "əl-Mumin" surəsindən 16-cı ayənin son hissəsi yazılıb. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılıb.

## Aqrar təhsilin keyfiyyəti ilə bağlı sorğular keçirilib

Kənd Təsərrüfatı Nazirliyi "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Straterji Yol Xəritəsi"nə uyğun olaraq, aqrar təhsil müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları və emalı müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlərin işlənib hazırlanması məqsədilə sorğular keçirib.



Nazirliyin İnsan resursları şöbəsinin təhsil sektoru tərəfindən aparılan sorğular üç istiqaməti - məzunların işlə təminatı, işəgötürənlərin məzunların bilikləri haqqında rəyinin öyrənilməsi və əmək bazarının tələbatının müəyyənləşdirilməsi istiqamətlərini əhatə edib.

Sorğuya 2017-ci ildə Azərbaycan Dövlət Aqrar Universitetini bitirən aqraryönümlü ixtisaslar üzrə 532 məzunun 56 faizi cəlb olunub. Sorğuda iştirak edən 300 məzunun 33 faizini qadınlar, 67 faizini kişilər təşkil edib.

Məzunların işlə təminatının müəyyənləşdirilməsi məqsədilə aparılan sorğu zamanı məlum olub ki, işləyən respondentlərin 43 faizi öz ixtisasları üzrə çalışır. Sorğunun nəticələri onu göstərir ki, tələbələrin universitetə aşağı bal ilə qəbul olması onların ixtisaslarına maraqlarına, ali təhsil müəssisəsindən gözləntilərinə və gələcək karyera seçimlərinə təsir göstərib.

Özəl və dövlət qurumları daxil olmaqla 201 təşkilat arasında keçirilən sorğu işəgötürənlərin təhsilin keyfiyyətinə dair məmnunluq səviyyəsini qiymətləndirməyə imkan verib. Belə ki, rəyi soruşulan işəgötürənlər məzunların praktiki və tətbiqi biliklərinin daha da gücləndirilməsini tövsiyə ediblər.

Əmək bazarı üzrə ehtiyaclarının öyrənilməsi məqsədilə 60 rayonda fəaliyyət göstərən ümumilikdə 201 kiçik, orta və iri sahibkar, eləcə də 1321 ailə təsərrüfatı arasında sorğu keçirilib. Sorğunun nəticələrindən bəlli olub ki, Azərbaycanda dövlət dəstəyi nəticəsində kənd təsərüfatı sahəsində fəaliyyət göstərən özəl və dövlət qurumlarında, həmçinin ailə təsərrüfatlarında innovativ texnologiyalar inkişaf etməkdədir. Təsərrüfatlarda innovativ texnologiyanın tətbiqinin genişləndirilməsi üçün tədris proqramlarında, kvalifikasiya və peşə standartlarının yenilənməsi məqsədəuyğun sayılır.

Sorğuların cavabları ümumiləşdirilib, təhlil edilib və nəticələr üzrə müvafiq tövsiyələr hazırlanıb.

## Heyvanlar arasında profilaktiki tədbirlər davam edir

Yanvar ayının əvvəllərindən etibarən ölkə ərazisində heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktiki peyvəndləmə işlərinə başlanıb.

Hazırda Ağstafa rayonunda saxlanılan heyvanlar arasında profilaktiki peyvəndləmə tədbirlərinin və diaqnostik müayinələrin icrası həyata keçirilir. Tədbirlər həm fərdi, həm də fermer təsərrüfatlarında aparılır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi bildirir ki, Ağstafa Rayon Baytarlıq İdarəsi rayonda mövcud olan qara-mal və təkdırnaqlı heyvanlar arasında qarayara xəstəlikləri əleyhinə peyvəndləmə tədbirlərini həyata keçirir. Tədbirlər yekunlaşdıqdan sonra ərazidə profilaktik dezinfeksiya işləri görülür. Tədbirlərin fevralın birinci ongünlüyünə kimi yekunlaşdırılması nəzərdə tutulur.

## Kənd təsərrüfatı ötən ilin yekun statistikasında

### Keçən il ölkədə 7,8 milyard manatlıqdan çox kənd təsərrüfatı məhsulları istehsal edilmişdir

Dövlət Statistika Komitəsinin keçən ilin yekunlarını əks etdirən hesabatında bildirilir ki, il ərzində ölkə üzrə faktiki qiymətlərlə dəyəri 7 milyard 836,7 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Bunun 4 milyard 85,5 milyon manatlığı heyvandarlıq, 3 milyard 751,2 milyon manatlığı bitkiçilik məhsulları olmuşdur.



2018-ci illə müqayisədə ümumi istehsal 7,2, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5, bitkiçilik məhsulları üzrə 11,7 faiz artmışdır.

Hesabatın bitkiçilik üzrə bölməsində qeyd olunur ki, keçən il ölkə üzrə dənlilərin və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkildiyi 1 milyon 39,5 min hektar sahədə 3 milyon 254,9 min ton (2018-ci ildəkindən 6,3 faiz çox) məhsul götürülmüşdür. Orta hesabla hər hektarın məhsuldarlığı 31,3 sentner olmuşdur. Bundan əlavə, 32,8 min hektar dən üçün qarğıdalı sahəsindən 283,6 min ton məhsul toplanmışdır. Beləliklə, qarğıdalı dəni də nəzərə alınmaqla 2019-cu ildə ölkə üzrə taxıl istehsalı 3 milyon 538,5 min tona çatmışdır.

Dənlilərin və dənli paxlalı bitkilərin tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. İstehsal olunmuş taxılın 61,4 faizini (2 milyon 171,5 min tonunu) buğda, 28,7 faizini (1 milyon 15,5 min ton) arpa, 8 faizini (283,6 min tonunu) qarğıdalı, 0,3 faizini (12 min tonunu) çəltik, 1 faizini (36 min tonunu) paxlalılar, 0,6 faizini (19,9 min tonunu) isə digər dənli bitkilər təşkil etmişdir.

Hesabata görə, ötən il sahələrdən, həmçinin 1 milyon 714,7 min ton (əvvəlki ilə nisbətən 12,7 faiz çox) tərəvəz, 1 milyon 4,2 min ton (11,7 faiz çox) kartof, 447,6 min ton (11,4 faiz çox) bostan məhsulları toplanmışdır. Məhsuldarlıq tərəvəz üzrə 14, kartof üzrə 20, bostan məhsulları üzrə 18 sentner artmışdır.

Bunlardan əlavə, keçən il əkilmiş 100,1 min hektar sahədən 295,3 min ton (26,4 faiz çox) pambıq, 16,6 min hektardan 34,8 min ton (43,3 faiz çox) dən üçün günəbaxan, 7,4 min hektardan 237 min ton (20,9 faiz az) şəkər çuğunduru, 3,1 min hektardan 6 min ton (4,4 faiz az) tütün yığılmışdır.

2019-cu ildə ölkə üzrə meyvə və giləmeyvə, üzüm və yaşıl çay yarpağı istehsalı da artmışdır. Belə ki, sahələrdən 1 milyon 99,7 min ton (8,8 faiz çox) meyvə və giləmeyvə, 201,8 min ton (20,4 faiz çox) üzüm, 929,4 ton (7 faiz çox) yaşıl çay yarpağı toplanmışdır.

Hesabatda aqrar sektorda cari ilin məhsulu üçün görülən işlər barədə də məlumat verilir. Bildirilir ki, ötən il dekabr ayının 24-nə olan məlumata görə, bu ilin məhsulu üçün təmiz herik şumu da daxil olmaqla 1 milyon 156,2 min hektar (əvvəlki ilə nisbətən 1,7 faiz çox) şum qaldırılmış, 1 milyon 19,2 min hektarda dən və yaşıl yem üçün payızlıq bitkilər əkilmişdir. Bunun 1 milyon 2,7 min hektarı dən üçün nəzərdə tutulmuşdur. Dənlik taxılın 63,4 faizi (636,2 min hektarı) buğda, 36,5 faizi (366,2 min hektarı) arpa əkini sahəsidir. Əvvəlki ilə nisbətən dən üçün taxılın cəmi əkin sahəsi 0,3, o cümlədən arpanın əkin sahəsi 10,6 faiz artmış, buğdanın əkin sahəsi isə 4,8 faiz azalmışdır.

Heyvandarlıq bölməsinə gəldikdə, burada da ciddi irəliləyişlər əldə olunmuşdur. Hesabatda bildirilir ki, keçən il ölkə üzrə diri çəkidə ət istehsalı 3 faiz artaraq 2 milyon 129,4 min, yun istehsalı 1,6 faiz artaraq 16,1 min tona, yumurta istehsalı 9 faiz artaraq 1 milyard 827,1 milyon ədədə çatmışdır. Bunlardan savayı, ölkədə 643,7 ton (əvvəlki ilə nisbətən 25,3 faiz çox) barama istehsal edilmişdir.

Statistikaya görə, keçən il hər inək və camışdan orta hesabla 1636 kiloqram süd sağılmışdır. Müqayisə üçün bildirək ki, 2018-ci ildə bu rəqəm 1589 kiloqram olmuşdur.

Hesabatda, həmçinin ölkədə olan heyvan və quşların sayı barədə də məlumat verilir. 2020-ci il yanvarın 1-nə olan vəziyyətə görə, Azərbaycanda 8 milyon 296,3 min baş qoyun və keçi, 2 milyon 658,1 min baş qara-mal, o cümlədən 1 milyon 281,2 min baş inək və camış olmuşdur.

Quşçuluğa gəldikdə, keçən il müəssisələrdə diri çəkidə 67,2 min ton quş əti, 764,5 milyon ədəd yumurta istehsal edilmişdir. Ümumilikdə quşçuluq müəssisələrində bəslənən quşların sayı 14 milyon 68,1 min baş olmuşdur. Hər yumurtlayan toyuqdan orta hesabla 201 ədəd yumurta alınmışdır.

***"Azərbaycan"***

## Sulut buzxanası Hərəm qalasının ərzaqla təmin olunması məqsədilə tikilib

Buzxanalar vaxtilə Azərbaycanda böyük şəhərlərdə və paytaxtda saraya xidmət edən inzibati binalar olub. Orta əsrlərdə geniş yayılmış buzxanalardan anbar kimi ərzaq saxlanması üçün istifadə edilib. Xüsusilə vergilər kimi toplanan natural məhsulların uzunmüddətli saxlanması üçün yerin altında belə buzxanalara çox ehtiyac olub.

AZƏRTAC xəbər verir ki, Fitdağ şəhərinin (Şirvan xanı Mustafa xanın təşəbbüsü ilə XVIII əsrin 90-cı illərində təxminən 10 il müddətinə salınan şəhər İsmayıllı rayonu ərazisində Sulut və Mücü kəndləri arasındakı Fit dağında tikilib) yaxınlığında, şəhərlə Hərəm qalası (Mustafa xanın ailəsinin qaldığı saray) arasında düzən sahədə inşa edilən Sulut buzxanası XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aiddir. Mustafa xanın təşəbbüsü və dəstəyi ilə tikilən Sulut buzxanası Hərəm qalasının ərzaqla təmini üçün istifadə olunub.

Dövlət Turizm Agentliyi Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli bildirib ki, Sulut buzxanası əsasən səliqə ilə kəsilən və cilalanan çay daşı ilə hörülüb. Buzxananın cənub-qərb tərəfdə yeganə qapısı, oradan isə aşağı buzxanaya düşmək üçün pilləkənlər olub. Lakin buzxananın həmin hissəsi xeyli dağılıb, pilləkənlər ayırd edilmir.

Sulut buzxanasının üzəri Naxçıvan və Ağsu buzxanalarından fərqli olaraq bişmiş kərpiclə deyil, divarların inşa edildiyi çay daşları ilə örtülüb. Bu buzxana da tağla bağlanıb və yerin altında qalması üçün üzərinə torpaq qatı verilib.

Sulut buzxanası Fitdağın süqutundan və şəhər əhalisinin Şamaxıya köçürülməsindən sonra dağılıb. Buzxana əsasən rus əsgərləri tərəfindən dağıdılıb. Ruslar uzun müddət Fitdağ şəhəri, Hərəm qalası, Buzxana və Xan qalasında Mustafa xanın xəzinəsini axtarıblar. Ona görə də Buzxananın həm şimal, həm də cənub hissəsində böyük dağıntılar törədilib. Lakin 200 ilə qədər vaxt keçməsinə baxmayaraq buzxana əsasən qorunub saxlanıb.



F.Xəlilli deyib: "Sulut buzxanasının bərpa və konservasiya edilməsinə böyük ehtiyac var. Divarların möhkəmliyini təmin edən ağac kətillər ya çürüyüb, ya da yerindən çıxarılıb. Əksər yerlərdə iri daşlar da divarlardan çıxarılıb. Ziyarətə gələn turistlər və yerli sakinlər arasında abidələrə zərər verənlər də var ki, onların izi divarlarda və daşlar üzərində görünür. Buzxananın bərpa edilərək uyğun formada sərgi zalı və ya çay evi kimi istifadəsi bu gün turizm baxımından da əlverişli olardı".

Elmi nəşrlər

# Keyfiyyətli dərsliklərin yazılması günün tələbidir

Müasir dövrün ən mühüm elmi problemlərindən biri ekoloji mühitin qorunması və gələcək nəsillər üçün yaşayış şəraitinin saxlanmasıdır.

XX əsrin elm sahələrində qazanılan nailiyyətlərdən biri də qədim ekologiyanın yenidən elmlər sisteminə daxil edilməsi və elmlərin ekologiyalaşdırılmasıdır. Keçən əsrin ortalarından başlayaraq müxtəlif adda ekoloji təmayüllü dərs vəsaitləri və dərsliklər yazılmağa başlanmış, əsrin sonuna qədər ekologiyanın tədrisinin və kadr hazırlığının genişlənməsi ilə əlaqədar olaraq hər bir sahə üçün ekoloji təlimlər formalaşmışdır.

Azərbaycan Respublikasının təhsil sistemində islahatlar mərhələsi həyata keçirildikcə orta və ali məktəblər üçün yazılan dərsliklərin nəinki sayı, eyni zamanda keyfiyyəti, xüsusilə informasiya zənginliyi yüksəlmiş, onlar müasirliyi və ekoloji məzmunu ilə fərqlənmişlər. Ölkəmiz müstəqillik yoluna qədəm qoyduqdan sonra təhsil sisteminin qlobal məzmunu genişlənmiş, yaradıcı alimlər qısa vaxt ərzində dərslik və dərs vəsaitləri ətrafında müstəqil düşüncəyə malik olduqlarını nümayiş etdirmişlər. Eyni zamanda ekologiyanın müxtəlif səviyyələrinin (kosmik, planetar, regional, lokal və s.) məzmununu təhlil edə bilmişlər. Yeni nəsil ekologiya və coğrafi ekologiya kimi mürəkkəb sahələrdə də yeniliklər yaratmışlar. Deyilənlərlə əlaqədar çoxlu sayda nəşr edilən kitabların daha yeni nümunələrin və elektron tərtibatlarının hazırlanması da çox vacib məsələlərdən biri olmuşdur.

Diqqəti cəlb edən belə kitablardan biri də BDU-nun professoru Şövqi Göyçayskinin "Coğrafi ekologiyanın əsasları" kitabının rus dilində çap edilməsidir (Bakı, "Ekoprint" nəşriyyatı, 2018). Həmin kitab indiyə qədər bu istiqamətdə bütün MDB-də yazılan kitabları təkrar etmir. Müəllif göstərir ki, ekologiyanın formalaşması bütün elmlərin və eləcə də coğrafiya elminin transformasiyasına təsir göstərmiş, bununla da elmlərin inteqrasiyasının yeni mərhələsi yaranmışdır. Bu kitabı diqqətlə oxuduqda dünyanın dərk edilməsinin yeni mərhələsinin başlandığını, fənlərarası əlaqələrin elmin inkişafında mühüm rol oynadığını bir daha görmək mümkündür.

Dərslikdə Yer kürəsinin - materiklərin, təbii sferaların, dünya okeanının ekoloji xüsusiyyətləri, Günəş-Yer, Günəş-biosfer münasibətlərinin tsikli, fəsli, ritmik dəyişikliklərinin ekoloji gedişi və məzmunu elmi şəkildə təhlil edilir. Eyni zamanda göstərilir ki, son 200 ildə məhsuldar qüvvələrin inkişafı, təbiət-əhali-istehsal sahələrinin intensiv inkişafı ölkə və regionların struktur və ərazi dəyişikliyinə güclü təsir göstərmişdir. Bütün bunlar nəticə etibarilə ətraf mühiti gərginləşdirmiş və ona görə də təbiəti bərpa və mühafizə tədbirlərinə ehtiyac yaranmışdır. Ekoloji proseslərin sosial, iqtisadi, siyasi, elmi və s. məzmun kəsb etməsi ilə əlaqədar olaraq elmlərarası sahəyə çevrilmişdir. Bununla əlaqədar müəllif ekologiyanın elmlər sistemində yerini verməklə yanaşı, coğrafi ekologiyanın da coğrafiya elmində yerini düzgün təsvir etmiş, eyni zamanda yeni dəlillərlə göstərmişdir ki, elmin və təhsil sisteminin ekologiyalaşdırılması tədricən ümumi inkişafa təsir göstərir və bir növ onu stimullaşdırır.

Müəllif həmin sahənin elmi anlayışlarını, predmetini, elmlərarası əlaqəsini şərh etməklə yanaşı, bir sıra mübahisəli məsələlərə (təbii təkrar istehsal və ictimai istehsalın təkrar istehsalının, təbii şəraitin və təbii ehtiyatların ümumi və fərqli cəhətləri; texnosferin biosferin əksinə istiqamətlənməsi və s.) aydınlıq gətirmişdir.

Kitabda yeni ideyalardan biri də ondan ibarətdir ki, müasir ekologiyanın formalaşmasında, onun gələcək perspektivləri fonunda "Böyük ekologiya"nın konturları cızılır və tədricən həmin sahə elmlər sistemində aparıcı rola malik olur.




Müəllif ekoloji prosesləri Yerin planetar və kosmik xassələri ilə əlaqələndirməklə yanaşı, onların fəlsəfi məzmununun açılmasını önə çəkir. Onun fikrincə, ekologiyanın araşdırılmasında təbiət-əhali-istehsal sistemləri daxili və sistemlərarası əlaqələrlə öyrənilməlidir. Göstərilənlərlə əlaqədar sistemlərdaxili və sistemlərarası qanunların və qanunauyğunluqların ekoloji məzmunlarının açılmasına, onların tədqiqi ilə əlaqədar müxtəlif elm sahələrinin nümayəndələrinin məqsədyönlü əməkdaşlığına şərait yaradılmalıdır.

Alim ekologiyanın və onun sahələrinin formalaşmasına dair nəinki respublikada olan, eyni zamanda xarici ölkələrin ədəbiyyatları ilə də yaxından tanış olduğundan ekologiyanın, xüsusilə coğrafi ekologiyanın elmi və praktiki sahəsinə dair cəsarətli fikirlər söyləyə bilmişdir.

Müəllif bütün təbii sferalararası əlaqələrin ekoloji məzmununu şərh etməklə yanaşı, onlar arasındakı uyğunluğu və ziddiyyətləri şərh edir, eyni zamanda izahını verir ki, sferalararası vaxtaşırı ziddiyyətlər ekstremal məzmun kəsb etsə də, sferalar tədriclə harmoniya yaratmağa meyillidir, yəni onlar arasında bütövlük qanunu daim özünü göstərir. Fəqət biosferlə texnosfer arasında əlaqələr əsasən texnosferin yaratdığı ziddiyyətlərlə zəngin olduğundan həmin proses güclü monitorinq və analitik təhlillər tələb edir. Müəllifin təhlillərində oxuculara çatdırılır ki, müasir dövrdə dayanıqlı inkişaf təbii şəraitdən və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi inkişafın ən mühüm yoludur. Lakin həmin sahədə problemlərin elmi-metodoloji əsasları kifayət dərəcədə açılmamışdır. Məhz bunun nəticəsidir ki, insan ekosistemlərin optimallaşdırılmasında problemlər qarşısında qalır.

Ümumiyyətlə, dərslik 19 fəsil və çoxlu sayda bölmələrdən ibarətdir. Burada ekologiyanın, xüsusilə coğrafi ekologiyanın elmi, metodoloji, metodiki məsələlərinə və s. aydınlıq gətirilmişdir. Kitab oxunaqlıdır, tələbələri düşünməyə, hadisələrə ekoloji baxımdan yanaşmağa sövq edir. Dərslikdəki biliklərə yiyələnən oxucu anlayır ki, ekocoğrafi biliklər elmin digər sahələrində əsas kimi qəbul edildikdə onların əməli fəaliyyətləri daha səmərəlidir, coğrafi informasiya sistemlərinə (CİS) olan tələblər daha keyfiyyətlə təmin edilə bilər.

Bəzi bölmələrdə dərin elmi təhlillərin verilməsi maraqlı olsa da, dərslik tələbindən bir qədər kənara çıxır. Bu da onun oxucu auditoriyasının daha geniş olacağına inam yaradır. Dərslikdə verilən əyani vasitələr - şəkillər, qrafiklər, xəritə-sxemlər olduqca məzmunludur, zəngin informasiyalara malikdir, təsvir edilən biliklərin qavranılmasını asanlaşdırır.

Ümumilikdə Şövqi Göyçayskinin yazdığı kitab coğrafi ekologiya sahəsində ilk orijinal dərslik olmaqla, fəsillərin və bölmələrin şərhi baxımından elmi yeniliklərə, zəngin informasiya mənbəyinə əsaslanır. Kitabı post-sovet məkanında nəşr edilən azsaylı kitablarla müqayisə etsək, onun özünəməxsusluğunun və fərqləndiyinin şahidi olarıq. Ən başlıcası odur ki, kitab müasirliyinə görə yalnız ekoloqlar, coğrafi ekologiya sahəsində təhsil alan və çalışanlar üçün deyil, digər sahə üzrə ixtisaslaşan mütəxəssislər, gənc yaradıcı alimlər və geniş oxucular üçün də əhəmiyyətli olacaqdır.

*Ramiz MƏMMƏDOV,*
*AMEA akademik*
*H.Ə.Əliyev adına*
*Coğrafiya İnstitutunun*
*direktoru, akademik*

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC "Milli KSM-2019" mükafatına layiq görüldü

Azərbaycanın dağ-mədən sahəsində ixtisaslaşan dövlət şirkəti olan "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) "Milli Korporativ Məsuliyyət (KSM)-2019" mükafatına layiq görülüb.

Ənənəvi olaraq hər il ölkədə korporativ sosial məsuliyyət siyasətinin təşviqi məqsədilə təşkil olunan müsabiqənin yekun mərhələsinə bu il təqdim edilmiş 60 layihə arasından 7-si vəsiqə qazanmışdır. "AzerGold"un 2019-cu ildə həyata keçirdiyi layihələrdən biri - Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində icra edilmiş "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliklərinə adaptasiyası" mövzusundakı təlim layihəsi BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədlərinə daxil olan iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə məqsədi əsas götürülərək müvafiq nominasiya üzrə seçilib. Bakı və Naxçıvan Muxtar Respublikasında icra olunan layihə çərçivəsində iqlim dəyişikliklərinə məruz qalan təsərrüfatların effektiv idarə edilməsi üçün 100-dən çox fərdi sahibkara innovativ praktiki biliklər aşılanmışdır.



Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Asossiasiyası (AQSİA) və PROAKTİV PR Agentliyinin birgə təşkil etdiyi müsabiqədə layihələr bir sıra dövlət, özəl və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən müxtəlif meyarlara uyğun olaraq dəyərləndirilib. Qeyd edək ki, "AzerGold" QSC "Milli KSM mükafatı"na layiq görülən ilk və yeganə dövlət şirkətidir.

"AzerGold" korporativ sosial məsuliyyət siyasətinə hər zaman böyük önəm verir. Cəmiyyətin hasilat işlərinə başladığı ildən onun nəzdində fəaliyyət göstərən KSM Komitəsi müxtəlif hədəf qruplarına yönəlmiş təşəbbüslər və layihələr vasitəsilə ölkədə sosial və dayanıqlı inkişafa, həmçinin dövlət siyasətinə töhfə verməkdədir.

***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulu cədvəlinə müvafiq olaraq Kənd Təsərrüfatı naziri İnam Kərimov yanvarın 25-də Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Saatlı, Sabirabad və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 53 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb.

Yanvarın 25-də Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Neftçala, Salyan və digər rayonlardan olan vətəndaşları, Kənd Təsərrüfatı nazirinin müavini Elçin Zeynalov isə Hacıqabul Dövlət Aqrar İnkişaf Mərkəzində Hacıqabul rayonu və Şirvan şəhərindən olan vətəndaşları qəbul ediblər. Neftçalada keçirilən vətəndaş qəbulunda 9, Hacıqabulda keçirilən vətəndaş qəbulunda isə 25 vətəndaşın müraciətinə baxılıb, məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

# Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir

*Əvvəli 1-ci səh.*

Rusiyada 1987-ci ildə Multikulturalizm Problemləri Komitəsi fəaliyyətə başlamışdır. İnkişaf etmiş ölkələrdən olan İsveçin isə multikultural siyasətinin əsas istiqamətlərini dil və təhsil strategiyaları təşkil edir. 1997-ci ildə qəbul edilmiş "İmmiqrasiya haqqında" qanun İsveçi multikultural cəmiyyət kimi qələmə verir. 1901-ci ildə Avstraliyada "İmmiqrasiya haqqında" qanun izolyasionizm siyasətinin idarə olunmasında əsas rol oynamışdır. Kanadada cəmiyyətin formalaşması isə ötən əsrin altmışıncı illərinə təsadüf edir.

Nəhayət, multikulturalizm termininin cəmiyyətin bütün sahələrini əhatə edən bir anlayış olduğunu deyə bilərik. Multikulturalizm bir-biri ilə əlaqəli olan müxtəlif xalqların və cəmiyyətlərin eyni ölkə daxilində vahid şəkildə yaşaması və həyat tərzidir. Ölkəmizə gəlincə, multikulturalizm Azərbaycanın demokratik proseslərinin bir hissəsidir. Ona görə də bu istiqamətdə keçirilən tədbirlər Azərbaycanın multikultural dəyərlərə yüksək etimadının sübutudur. 2016-cı ilin aprelində Bakı şəhərində keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu bir daha dünyaya sübut etdi ki, Azərbaycanda multikultural dəyərlərə yüksək səviyyədə diqqət yetirilir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın çoxmillətli dövlət kimi inkişafını şərh edərkən demişdir: "Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirərsə, bir o qədər zəngin olar".

Bu bir həqiqətdir ki, azərbaycançılıq ideologiyası bir tərəfdən azərbaycanlıların ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içərisində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər tərəfdən ölkəmizin türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Azərbaycançılıq məfkurəsini müasir Azərbaycanın ideoloji təliminə çevirən Ulu Öndər Heydər Əliyevin 13 avqust 2001-ci ildə milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı verdiyi bəyanatda səslənən fikirlər kifayət qədər aktual və ibrətamizdir: "Hər bir xalqın öz adət-ənənəsi, milli-mənəvi və dini dəyərləri vardır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, onları qəsdən təhrif edirsə, bu hal bizi narahat etməlidir".

Azərbaycan Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycanda dövlət siyasətinin tərkib hissəsi olduğunu demişdir: "Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır".

Hazırda Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın milli-mənəvi dəyərlərə yanaşmada fikirləri maraqlıdır: "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın".

Heydər Əliyev Fondu multikultural dəyərlərin təbliğində böyük xidmətlər göstərir, dünyada gedən proseslərə öz töhfələrini verir. Belə ki, Fondun prezidentinin təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgəyaşama", "Azərbaycan - tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək lazımdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə Bakıda Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısı keçirildi. Məqsədi sivilizasiyalararası dialoq prosesinin inkişafına təkan vermək idi. İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirləri tədbirdə iştirak etmişdilər. Bu, tarixdə ilk dəfə idi ki, iki önəmli beynəlxalq təşkilatın nümayəndələri Bakıya toplaşmışdılar. Bakıda 2009-cu ildə keçirilən növbəti tədbirə Avropa Şurasının mədəniyyət nazirləri ilə yanaşı, İslam Əməkdaşlıq Təşkilatının üzvləri də dəvət edilmişdilər. Beləliklə, dünyada qəsdən və süni şəkildə dağıdılmağa və eroziyaya məruz qoyulan multikultural dəyərlərə ölkəmizin yüksək səviyyədə qiymət verdiyi bir daha sübut olundu. Prezident İlham Əliyev bildirmişdir ki, dövlətimiz nəinki məscidlərin, o cümlədən provaslav və katolik kilsələrinin, sinaqoqların bərpasına və yenidən inşasına sərmayə yatırır. Qəsbkar Ermənistana isə terror, etnik təmizləmə siyasəti xarakterikdir, bu işğalçı ölkə Azərbaycanın mədəni irsini məhv etməyi ən ali məqsəd olaraq seçmişdir.

Dövlətimizin başçısı 2015-ci il noyabrın 17-də Parisdə UNESKO-nun 38-ci sessiyasının Liderlər Forumunun tribunasından Ermənistanın mədəni irsə qarşı terrorçuluq siyasətini xüsusi vurğulamışdır: "Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrin məhv edilməsindən əziyyət çəkən ölkəni təmsil edirəm. İşğal nəticəsində ölkəmizin 600-dən çox tarixi və memarlıq abidəsi, 40 min eksponatı olan 22 muzey, 10 məscid məhv edilmişdir. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa edilmiş erməni kilsəsini görə bilərsiniz".

Prezident İlham Əliyev Qafqazın ən qədim kilsələrdən birinin Şəkidə, Şamaxı şəhərində isə 743-cü ildə tikilmiş qədim məscidin yerləşməsindən söz açmışdır. Dövlət başçısı onu da əlavə etmişdir ki, xalqımız bundan qürur və fərəh hissi keçirir: "Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm-dövlət syasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir".

İndi əksəriyyət belə bir həqiqətin fərqindədir ki, bütün bəşəriyyəti təhdid edən ayrı-ayrı problemlərin həlli üçün hamı öz imkanlarını birləşdirməlidir. Ayrı-ayrı dövlətlərin, cəmiyyətlərin təmsilçiləri daha tez-tez bir araya gəlməlidirlər. Fərqli dinlər, mədəniyyətlər arasında dialoqun əldə olunmasına hər kəs səy göstərməlidir.

Dövlət başçısının fərman və sərəncamları əsasında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi Xidmətinin, həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu sahədə atılmış ən uğurlu addımlardandır. Əlbəttə, 2016-cı il yanvar ayının 11-də "Multikulturalizm ili"nin elan edilməsi məqsədilə imzalanmış sərəncam ölkəmizdə bir daha multikultural dəyərlərə olan hörmət və tolerant düşüncə tərzinin mövcudluğunun sübutu olmuşdur.

Konstitusiyada Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işinin əhəmiyyəti də öz əksini tapmışdır. Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə göstərilmişdir. Ölkəmizdə kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyanı qoruyub saxlayan unikal xüsusiyyətlərinin daşıyıcısıdır. Yəni multikulturalizm bizim ölkədə Azərbaycan dövlətinin sabit və davamlı siyasi kursudur.

*Adilə FƏRƏCOVA,*
*Azərbaycan Respublikasının*
*Prezidenti yanında Dövlət*
*İdarəçilik Akademiyasının*
*müdavimi*

# Corc DİK: "İsrail Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir"

İsrail Azərbaycanın ərazi bütövlüyünü və ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərini tam dəstəkləyir. AZƏRTAC xəbər verir ki, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik yanvarın 24-də keçirdiyi mətbuat konfransında deyib.

C. Dik vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sülh və dialoq yolu ilə həll olunmalıdır. Tərəflər arasında əldə olunacaq razılaşmaya İsrail tərəfi də hörmət edəcək.

Səfir həmçinin qeyd edib ki, İsrail və Azərbaycan təhlükəsizlik və terrorla mübarizə sahələrində sıx əməkdaşlıq edirlər. İsrail ilə Azərbaycan arasında strateji münasibətlərin yüksək qiymətləndirildiyini, bu iki ölkənin dostluğunun hər kəs tərəfindən tanındığını və ona hörmət edildiyini deyən C.Dik bildirib: "Martın 2-də İsraildə parlament seçkiləri keçiriləcək. Deməliyəm ki, seçkilərin nəticələrindən asılı olmayaraq, ölkələrimiz arasındakı əlaqələr inkişaf etməyə davam edəcək. Azərbaycan İsrail üçün dost və tərəfdaş ölkədir".

Diplomat vurğulayıb ki, Azərbaycan bütün dinlərə mənsub insanların yan-yana yaşadığı ölkədir. Azərbaycandakı yəhudi icması özünü evindəki kimi hiss edir. Holokostun anım mərasimində ölkəmizin də təmsil olunduğunu bildirən səfir qeyd edib ki, bu, Azərbaycanın İsrail xalqına və dövlətinə münasibətini göstərir.

Bundan başqa, diplomat qeyd edib ki, İsrail idxal etdiyi neftin əsas hissəsini Azərbaycandan alır. Ötən il Azərbaycana səfər edən israilli turistlərin sayı 60 min nəfər olub. Bu, 2016-cı illə müqayisədə 5 dəfə artım deməkdir.

Azərbaycanın gələn ay İsraildə keçiriləcək beynəlxalq turizm sərgisində pavilyonla təmsil olunacağını qeyd edən səfir bildirib: "Azərbaycandan olan nümayəndə heyəti gələn həftə İsraildə kibertexnologiyalar mövzusunda keçiriləcək tədbirə də qatılacaq. Azərbaycanda kənd təsərrüfatı sahəsində İsrailin yeni texnologiyaları tətbiq olunur. Ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm".

# Azərbaycan Ordusunda Həzi Aslanovun 110 illiyinə həsr olunan silsilə tədbirlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyi münasibətilə silsilə tədbirlər keçirilib.



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib. Çıxış edənlər Böyük Vətən müharibəsi illərində şücaət göstərmiş, qəhrəmanlıqları ilə yaddaşlarda iz qoyan, Vətən torpaqlarının azadlığı uğrunda son damla qanını belə əsirgəməyərək düşmənlə mübarizə aparan Azərbaycanın igid oğlu Həzi Aslanovun həyatı, döyüş yolu haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olan Həzi Aslanovun qəhrəmanlıqla dolu həyat yolu hər bir vətəndaşımız üçün nümunədir.

Tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi qəhrəmanlığı tərənnüm edən musiqi proqramı ilə çıxış edib. Həmçinin Həzi Aslanovun həyatı və hərbi fəaliyyətindən bəhs edən sənədli film və sərgilər nümayiş olunub.





# Ədəbiyyat





● Nəsimi - 650

## "On dördüncü əsr yıxılır-durur, Tutur Nəsiminin ətəklərindən..."




**Sözün heyrət doğuran həddi var. Bu, Nəsimi həddidir ki, Nizamidən, Füzulidən üzü bəri yol gəlir, könüllər fəth edir. Böyük şair-filosof Nəsimi deyir ki, mənim öz həqiqətim, "ənəlhəqqım" var. Elə bu əqidə ilə də Nəsimi hər hansı cismani yoxluğun fövqündə dayanır. Şair həqiqəti öz məntiqi ilə tanıyır. Cahana sığmayan dahi insan faciəli bir ömür yaşayıb. Fədakarlığı ilə, sözünə bütövlüyü ilə yaddaşlarda qalıb. Orta əsr qaranlıqlarından boylanan işıq kimi bu gün də nur saçır, dünyanı aydınlaşdırır. Könüllər fatehi sübut edir ki, o, ədəbiyyat üfüqində doğan eşq günəşidir. Neçə əsrdir ki, nəsil-nəsil bu zəngin mənbədən, ədəbi irsdən qədərincə faydalanırıq. Yaradıcılığının hər qatında bir məna, hər sətirindən bir məzmun boylanır...**

Yaxşı xatırlayıram, universitetdə oxuduğum illərdə bir dəfə xalq şairi, görkəmli alim Bəxtiyar Vahabzadə sevinə-sevinə qapını açıb əlindəki "Ədəbiyyat və incəsənət" qəzetini yüksək səslə oxumağa başladı:

- On dördüncü əsr yıxılır-durur,
Tutur Nəsiminin ətəklərindən...

Və sonra izahat verdi ki, təkcə bu misranın bir əsər qədər gücü, siqləti var. Bunu da alovlu şair Xəlil Rza Ulutürk deyib. Deyib ki, təkcə Nəsiminin yaradıcılığı yetər ki, on dördüncü əsr yetim qalmasın.

Ədəbi dilimizin zənginləşməsinə o qədər yeniliklər gətirib ki, sayıb-sadalamaqla bitib tükənmir. Biz tələbələri yaxşı bilirdik ki, Bəxtiyar Vahabzadəni hər yazıyla təəccübləndirmək olmaz. Amma özü etiraf edirdi ki, Xəlil Rzanın bu şeirini oxuyandan sonra sözün heyrət doğuran həddi ilə barışdım və əllərimi dizimə çırpdım, İlahi, belə də demək olar! Bu Nəsimi sehri ağlın və qəlbin uzaqdan saçan gur işığı idi. Nə yaxşı ki, ulu Nəsiminin belə dəyərli varisləri, davamçıları vardır. O irsin, o külliyyatın yeri boş qalmamışdı. Nə qədər ki, şeiriyyət, ədəbiyyat var, belə boy artımı zərrə-zərrə davam edəcək. 650 il yox, lap əsrlər, qərinələr ötsə də, faciələrə baş əyməyən sözün əsas sütunları tələbkar oxucunun könlünü fəth edibdir...

Fədakarlığı ilə əfsanəyə çevrilən Nəsimi hələ min illərin sınağından çıxacaq, orta əsr qaranlıqlarını aydınlığa çevirəcək...

Mahir söz ustadı özündən sonra ərsəyə gələn ədəbiyyatın əsl qibləgahına çevrildi. Ona üz tutan şairlər, yazıçılar Nəsimi cəsarətindən ehtiyat edirdilər, böyük dahinin söz mülkində çox xırda və cılız görünə bilərdilər. Ona görə də böyük dahidən çəkinirdilər. Bu gün də böyük ədəbiyyatın cəfakeşləri Nəsiminin faciəvi ölümü qarşısında baş əyir, onun ənənələrini ləyaqətlə davam etdirməyə cəhd göstərirlər.

**Hələ 50 il öncə Ulu Öndər Heydər Əliyev Nəsiminin 600 illik yubileyini** UNESKO-nun tədbirlər siyahısına daxil etdirmişdir. Dünyaya göstərmişdi ki, Şərqin belə dəyərli söz korifeyləri var. Bu ənənə varisliklə, ardıcıllıqla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev də Nəsimi irsinə çox böyük qiymət verməklə sübut etdi ki, ədəbiyyat əbədi, yazıb-yaratmaq isə ağlın və qəlbin işığı, nur mənbəyidir. Və yaşadığımız ötən ili "Nəsimi ili" elan etdi.

Orta əsr ədəbiyyat tarixində Nəsimi ayrıca bir mərhələdir. Fədakarlığı ilə əfsanəyə çevrilən türk dünyasının qüdrətli söz ustadı təkcə bir əsrə yox, böyük bir zaman kəsiyinə dayaq ola bilib. Sözün bitib-tükənməyən "zəlzələ"sini yaradıb, neçə nəslin boy artımına işıq saçıb...

Deyirlər, Şamaxıda üç dəfə zəlzələ olub, birini orta əsrlərdə poeziyada Nəsimi yaradıb. O qədər təsirli olub ki, səsi-sorağı bu gün də səngimir. Davamı Sabirdən gəldi və XX əsri lərzəyə saldı. Sonuncunu təbiət törətdi. Biz hələ də diksinirik - təbiətin yaratdığı zəlzələyə yox, Nəsiminin, Sabirin söz dünyasının titrəyişlərinə...

*Bəşir ŞƏRİFLİ,*
*"Azərbaycan"*

● C.CABBARLI - 120

## Cəfər Cabbarlının tərcüməçilik fəaliyyəti

**Azərbaycanda tərcümə sənətinin tarixi çox qədimdir. XIX əsrin 30-cu illərindən etibarən rus realist ədəbiyyatı ilə tanışlıq, ayrı-ayrı ədəbiyyat xadimlərinin şəxsi ünsiyyəti qiymətli ədəbi nümunələrin Azərbaycan dilinə tərcüməsi ilə nəticələnir. Bu cəhətdən A.A.Bakıxanovun Krılovdan etdiyi tərcümələr Azərbaycan dilinə tərcümə sahəsində atılan ilk addımlardır. Bu sənətin inkişafının yeni yüksəliş dövrü XX əsrin əvvəllərinə - böyük inqilabi hadisələr dövrünə təsadüf edir. Bu dövrdə həm ictimai-siyasi, həm də ədəbi-bədii mətnlərin Azərbaycan oxucularına çatdırılması sahəsində böyük addımlar atılır, rus dilindən və qismən Qərbi Avropa dillərindən Azərbaycan dilinə bir çox əsərlər tərcümə edilir.**



Həmin dövrdə tərcümə sənətinin yaranması və inkişafında böyük rol oynayan şəxsiyyətlərdən biri Cəfər Cabbarlı olmuşdur. O, ədəbiyyatımızın tarixində təkcə yazıçı və dramaturq kimi deyil, eyni zamanda kinossenarist, rejissor, jurnalist və tərcüməçi kimi şöhrət tapmışdır. Azərbaycanda tərcümə sənətinin əsasını qoyanlardan biri məhz C.Cabbarlı olmuşdur.

Dramaturq özünün qısa ömründə ştat üzrə, yəni aylıq məvaciblə cəmi iki vəzifədə işləmişdir. Bunlardan birincisi tərcüməçilik idi. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra başlanan bu əmək fəaliyyəti "Kommunist" qəzeti redaksiyasında olmuşdur. Yazıçının bəzi yazılarından və arxivlərdə saxlanılan nadir sənədlərdən təxmin etmək olar ki, o, 1920 ildən 1928-ci ilə qədər burada işləmiş, sonra isə Azərbaycan Bədaye Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışmışdır. Ədib eyni zamanda "Azərbaycan" qəzetində, "Ali İqtisadi Şuranın Əxbarı" jurnalında, Xalq Ərzaq Komissarlığında və başqa qurum və təşkilatlarda da 10 ilə yaxın peşəkar tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdur.

C.Cabbarlı "Kommunist" qəzeti redaksiyasında Əfrasiyab Bədəlbəyli, İbrahimxəlil İbrahimov, Əsəd Tahir, Süleyman Məlikov, Dadaş Cavadlı və başqa tərcüməçilərlə bərabər əsasən Teleqraf Agentliyinin verdiyi məlumatları ruscadan azərbaycancaya tərcümə edirdi. Bu məlumat isə həcmcə geniş, üslubca rəngarəng idi. Partiya və hökumətin qərarları, mühüm siyasi, iqtisadi, təsərrüfat, mədəniyyət məsələlərinə həsr olunmuş müxtəlif yığıncaqlardan, iclaslardan hesabatlar və buradakı məruzələrin, nitqlərin mətnləri, beynəlxalq müqavilə və əhdnamələr, daxili və xarici xəbərlər və s. Bu iş hər hansı bir tərcüməçiyə xas olan dəqiqliklə yanaşı, son dərəcə operativlik tələb edirdi. Təbiidir ki, teleqrafla verilmiş təcili xəbərlərin tərcüməsi üzərində uzun-uzadı işləmək imkan xaricindədir. Həmin materiallar redaksiyada tərcüməçi tərəfindən makinaçıya diktə edilir və dərhal mətbəəyə göndərilirdi. Çox zaman isə "Son saat" başlığı altında verilən xəbərlər gecələr mətbəədə tərcümə olunurdu ki, bunun üçün də tərcüməçilər orada növbə çəkirdilər. O vaxt "Kommunist" qəzeti redaksiyasının çap olunduğu "III İnternasional" mətbəəsində linotipçi işləmiş qocaman jurnalist Qulam Məmmədlinin dediyinə görə, Cəfər gecələr mətbəədə növbətçi tərcüməçi olarkən son teleqramları birbaşa linotipçiyə diktə edir və həmin xəbərlər kağıza yazılmadan birbaşa qurşunla yığılıb səhifəyə qoyulurdu. Bu isə tərcüməçidən öz sənətinə son dərəcə mükəmməl yiyələnməyi tələb edirdi.

Cəfər Cabbarlının "Kommunist" qəzetində tərcüməçilik fəaliyyətinin xüsusiyyətləri haqqında bizə gəlib çatan əsas məlumatlardan biri də onun Azərbaycan dilinin təmizliyinə xüsusi diqqət yetirməsindən, dilimizin ərəb və fars sözlərindən təmizlənməsinə çalışmasından, bəzən hətta yeni sözlər və ifadələr axtarıb tapmasından ibarətdir. Cabbarlının yeni əlifba ilə yanaşı, yeni terminlər uğrunda mübarizəyə çağıran məqalələrlə mətbuatda çıxış etməsi də bu cəhətdən maraqlıdır. Məsələn, onun "Qiymətli bir təşəbbüs" məqaləsində oxuyuruq: "Azərbaycan xalqı böyük və son sistemli hökumət aparatının müxtəlif rəsmi dairələrində işləmək üçün lazım olan yüzlər və minlərlə siyasi təbirlərə, istilahlara, həmçinin məktəblərində, darülfünun, darülsənaye və bu kimi mədəni və maarif dairələrində qollanacaq yüzlər, minlər, bəlkə də yüz minlərlə istilah və təbirlərə malik olacaq qədər mükəmməl bir dilə, həmçinin onu kamalınca yaza bilmək üçün müntəzəm bir əlifbaya malikmidir? Cavab aydındır: Əlbəttə, yox! Bunun üçündür ki, bizdə dil və hürufat məsələsinin islahı hər kəsi düşündürür və bu məsələ xalqımıza rahatlıq vermir. Dilimizin və hürufatımızın qəti surətdə islahı lazımdır..."

Aydındır ki, Cabbarlı kimi yenilik carçısı olan bir qələm sahibi bu nəcib məqsədi yalnız təbliğ-təşviq etməklə kifayətlənə bilməzdi. O, özü də bu mübarizənin fəal iştirakçılarından, bu yeniliyin qabaqcıl yaradıcılarından biri idi və arzularını orijinal əsərləri ilə yanaşı, tərcümələrində də həyata keçirirdi. Vaxtilə "Kommunist" qəzeti redaksiyasında işləmiş qocaman jurnalistlərin dediyinə görə, indi dilimizə möhkəm daxil olmuş "Bildiriş" (Elan əvəzinə), "Düzəliş" (Təshih əvəzinə) kimi sözlər məhz Cabbarlının tərcüməçilik vaxtı "ixtira etdiyi" təbirlərdəndir.



Azərbaycan tərcüməçiliyi tarixində Cəfər Cabbarlının misilsiz rolu, onun həm ictimai-siyasi, həm də bədii tərcümə sahəsində xidmətləri son illərə qədər demək olar ki, qətiyyən araşdırılmamış və tətbiq edilməmişdi. 2000-ci ildən başlayaraq dramaturqun bu sahədəki işləri araşdırılmağa başlanmış, 2014-cü ildə C.Cabbarlı ev-muzeyinin layihəsi əsasında sənətkarın tərcümə etdiyi bir sıra əsərlərin toplandığı "Cəfər Cabbarlının tərcümələri" adlı kitab işıq üzü görərək oxuculara təqdim olunmuşdur. Dramaturqun Qərb və rus klassiklərindən etdiyi tərcümələrin siyahısı böyük, janrları müxtəlif, üslubu zəngindir. Bu siyahıda V.Şekspirin "Hamlet", "Otello" və F.Şillerin "Qaçaqlar" faciələri ilə yanaşı, Bomarşenin "Fiqaronun toyu" komediyasını, L.N.Tolstoyun "Hacı Murad" povesti ilə bərabər, C.Uelsin "Yeraltı Dünya" romanını, A.Afinogenovun "Qorxu", L.Slavinin "Müdaxilə", M.Qorkinin "Cocuqluq" hekayələrini və s. görürük.

Aydındır ki, C.Cabbarlı bu əsərlərin hərəsinə ayrı gözlə baxmamış, onların hər birini xüsusi üslubla tərcümə etmiş və bu zaman yalnız orijinalın janrını deyil, eyni zamanda, müəllifin öz dəstxətini də nəzərə almış, onları məhz özlərinə görə səciyyələndirə bilmişdir.

Tərcümə işinə yüksək bir sənət kimi baxan, əlinə aldığı hər bir əsəri böyük bir ilhamla, coşqun bədii yaradıcılıq ehtirası ilə tərcümə edən bu istedadlı yazıçı qısa ömrü ərzində dünya klassiklərinin əsərlərinin Azərbaycana həqiqətən klassik tərcümələrini vermişdir, onları bütün əzəməti ilə tamaşaçı və oxucularımıza tanıtdıra bilmişdir. C.Cabbarlının tərcüməsindən valeh olan xalq yazıçısı Mirzə İbrahimov haqlı olaraq yazırdı: "C.Cabbarlının tərcümə etdiyi "Hamlet"i xatırlayın. "Hamlet" dünya dramasının çətin və ən gözəl əsəridir. Şekspirin şah əseridir, onu tərcümə etmək o qədər də asan deyildir. Lakin Cabbarlı onu tərcümə edərkən böyük qələm işlətmişdir. Əsərin tərcümə edildiyi zamanın bəzi dil və istilah xüsusiyyətləri nəzərə alınmazsa, Cəfərin tərcüməsi doğrudan da bir möcüzədir".

Şübhəsiz ki, Cabbarlı öz tərcümələrində möcüzələr yaradarkən, ilk növbədə, dilə, əsərin tərcümə olunduğu Azərbaycan dilinə, onun zəngin xalq xəzinəsinə, oradakı nadir incilərə, gizlənən incəliklərə arxalanırdı. Bütün bunlara əsaslanaraq qeyd olunmalırdır ki, böyük Azərbaycan yazıçısı Cəfər Cabbarlı əvəzsiz tərcüməçi olmuşdur.

O, bədii tərcümə işini həqiqi sənət yüksəkliyinə qaldıra bilmiş və bu sahədə elə zəngin məktəb yaratmışdır ki, ondan sonra gələn tərcüməçi nəsilləri özlərinin böyük sələfindən bəhrələnmiş və bundan sonra hələ çox öyrənəcək və faydalanacaqlar.

*Qəmər SEYFƏDDİNQIZI,*
*Əməkdar mədəniyyət işçisi, Cəfər Cabbarlı ev-muzeyinin direktoru*

● Dünya yazarları

## Ədəbiyyatın gün təki nuru...

**Sovet hökumətinin Azərbaycanla Türkiyə arasında möhkəm çəkdiyi tikanlı sərhədləri aşa bilən ən maraqlı əsərlərin müəlliflərindən biri Rəşad Nuri Güntəkin idi. Ən çox da "Çalıquşu", "Dodaqdan qəlbə", "Yarpaq tökümü", "Damğa" romanları onu Azərbaycan oxucularına tanıdır, sevdirirdi.**

### Hərbi həkimin yazıçı oğlu

İstedad öz yerində, Rəşad Nuri Güntəkinə belə maraqlı əsərlər yazdıran həm də həyatdan görüb-götürdükləri, müşahidə etdikləri idi. 1889-cu ilin 25 noyabrında İstanbulun Üsküdarında dünyaya göz açan Rəşad Nuri hərbi qulluqçu ailəsində boya-başa çatıb. Atası Nuri bəy hərbi həkim idi. Anası Lütfiyyə xanım Ərzurum valisi Yavər Paşanın qızıydı. Bacısı Rəşidə çox gənc yaşında vəfat etdiyindən Rəşad Nuri ailənin tək övladı olaraq böyüdü.

Atasının işləri ilə əlaqədar ünvanları tez-tez dəyişdiyindən uşaqlıq illəri fərqli yerlərin, şəhərlərin mənzərələri ilə xatirələrinə köçürdü. Onun məktəb yaşı çatanda Çanakqalada yaşayırdılar.

Kitab oxumağı elə əlifbanı öyrənə-öyrənə sevdi. Yazıb-oxumağı bacardıqdan sonra atasının zəngin kitabxanası onun sevimli yeri oldu. Sonralar uşaqlıq xatirələrində qış gecələrində Fatma Aliyə xanımın "Udi" romanından oxunan parçaları yada salacaqdı. Yaddaşında dərin iz buraxan Fatma Aliyə xanımın və Xalid Ziyanın əsərlərinin onun yaradıcılığına, xüsusilə hekayə zövqünün formalaşmasına təsirini Rəşad Nuri Güntəkinin araşdırıcıları da diqqətə çatdıracaqdılar...

Bir müddət sonra Qalatasaraya köçdülər. Rəşad Nuri bir il orada məhəllə məktəbində oxuduqdan sonra İzmirə getdi. Təhsilini İzmirdə davam etdirdi. Daha sonra İstanbulda liseydə oxudu. Ədəbiyyata marağı onu İstanbul Darülfününuna apardı. 1912-ci ildə həmin məktəbin ədəbiyyat fakültəsini bitirdi və pedaqoji fəaliyyətə başladı. İyirmi üç yaşlı Rəşad Nuri əvvəlcə İstanbul, sonra Bursada ədəbiyyat müəllimi işlədi. 1916-1917-ci illərdə İstanbul Fateh Vahid məktəbinə müdir təyin olundu. Sonralar pedaqoji fəaliyyətini Vəfa və Ərəngöy məktəblərində türk dili və ədəbiyyat müəllimi kimi davam etdirdi.

Müəllim peşəsini çox sevdi. Böyük həvəslə, eyni zamanda cəmiyyətin tərəqqisinə mane olan sosial problemlərin gətirdiyi narahatlıq hissiylə xalqının maariflənməsi yolunda çalışdı. Ancaq ədəbiyyat Rəşad Nurini həmişəlik öz cazibəsinə salmışdı...

Bədii yaradıcılığa hekayə yazmaqla başladı. Bu sahədə ilk qələm təcrübəsi sayılan "Köhnə dost" adlı hekayəsini 1917-ci ildə yazdı. Elə o vaxtdan böyük coşqu və ciddiyyətlə qələmə sarıldı. Çox keçmədi ki, onu həm də səhnə əsərlərinin müəllifi kimi tanıdılar. Teatr tənqidi və araşdırmaları ilə də məşğul oldu. 1918-1919-cu illərdə "Zaman" qəzetində "Tamaşa həftələri" sərlövhəsi ilə teatr tənqidi mövzusunda yazıları işıq üzü gördü. 1920-ci ildə Rəşad Nurinin "Xəncər", 1922-ci ildə isə "Köhnə yuxu" adlı səhnə əsərləri yayımlandı.



Böyük şöhrəti Rəşad Nuri Güntəkinə ilk romanı gətirdi. Mövzunu əvvəlcə *"İstanbul qızı" adlı səhnə əsərində təsvir etmiş,* ancaq tamaşaya qoyulması mümkün olmamışdı. Sonra "Çalıquşu" adlı romana çevirmişdi. Əsəri 1922-ci ildən hissə-hissə "Vakit" ("Vaxt") qəzetində çap etdirdi. Birinci romanının uğuru yazıçını ruhlandırdı. Onun 1924-cü ildə oxuculara təqdim etdiyi "Damga" və *"Dodaqdan qəlbə" romanları da "Çalıquşu" qədər diqqətçəkən oldu.*

### Tələbəsinə aşiq olan Güntəkin

Erenköy Qız Liseyində çalışdığı vaxtlar eşq könül qapısını açdı. Rəşad Nuri tələbəsi Hədiyə xanıma vuruldu.

O vaxtadək qızın xəyallarında başqa bir arzunun işığı vardı. Oxuduğu təhsil ocağında da onun səsinin gözəlliyini hər kəs bilirdi. Hədiyə xanımı məktəb müdiriyyəti xaricə göndərmək niyyətindəydi. Ancaq atası razılıq vermədi. Oxumaq arzusu gözündə qalan Hədiyə xanımla Rəşad Nurinin arasında o günlərdə sevgi yarandı. 1927-ci ildə evləndilər.

Rəşad Nuri Güntəkin 1931-ci ildə maarif müfəttişi vəzifəsinə təyin olundu. Dil heyəti ilə ortaq çalışmalara başladı. Yeni vəzifəsi sayəsində Rəşad Nuri Güntəkin bütün Anadolunu dolaşdı. Yazıçı marağı ilə o yerlərdə yaşayan insanların həyat tərzinə, düşüncələrinə bələd olur, müşahidə etdiklərini, eşitdiklərini yaddaşına köçürürdü. Bunlar Rəşad Nurinin yaradıcılığı üçün zəngin mənbə oldu. Ancaq Anadolu səyahətləri ayrıca bir kitabda da əksini tapdı və 1936-cı ildə "Anadolu notları" adı ilə yayımlandı.

Yazıçının 1927-1930-cu illərdə "Tanrı müsafiri", "Sönmüş ulduzlar", "Leyli və Məcnun", "Fövqəladə işlər" adlı hekayələr kitabları çapdan çıxdı. Maarif müfəttişi vəzifəsində 1939-cu ilədək qaldı.

İlk əsərlərindən özünəxas bədii üslubu ilə diqqəti cəlb etdi. Bu üslubu sonunadək dəyişməyəcəkdi. Ancaq bəzən həyatının məcrası dəyişdi. 1928-ci ildə o, *"Acımaq" romanını qələmə aldı və yaradıcılığına on ilədək ara verdi.*

Siyasət şöhrətli yazıçını da rahat buraxmadı. 1939-cu ildə Çanaqqaladan Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçildi.

Artıq çoxlarının tanıdığı Rəşad Nurinin qəlbində bir həsrət vardı. Sevgi dolu ocağı uşaq səsinin intizarındaydı. Bu həsrət on dörd il çəkdi. 1941-ci ildə qızı Ela dünyaya gəldi. İllər sonra Rəşad Nuri qızının xatirə dəftərində duyğularını belə ifadə etdi: "11 mart 1951-ci il... Ela, qızım, mən uşaq ikən sənin yaşında olarkən göy üzündəki aya baxardım, "Ay dədə, ay dədə, oğlun, qızın çox, dədə, birini mənə versənə. Allah sənə çox verə", - deyə dua edərdim. Ay dədə məni eşitdi. Uşaqlarının birini mənə verdi. "Adı Ela olsun", - dedi. "Mənim qədər çox ömrü, mənimkilər qədər gözəl uşaqları olsun", dedi. Ela qızın atası Rəşad Nuri Güntəkin".

Yazıçı ulduzlarla danışmağı sevərdi. Ulduzlar uzaqda olsa da, qızı yanındaydı. Amma onunla da tez-tez xəyali söhbətlər qurardı. Əslində Rəşad Nurinin həmsöhbəti özü idi. Sonralar qızı "Evimiz monastır kimi bir yer idi" deməsi ilə yazıçının çox ciddi bir adam olduğunu anlatdı.

### Zamana meydan oxuyan əsərlərin müəllifi...

Yaradıcılıq aləmi Rəşad Nuri Güntəkini daha çox cəlb edirdi. Bu səbəbdən o, siyasətlə uzun illər fəal məşğul olmadı. 1947-ci ildə "Məmləkət" qəzetinin baş redaktoru vəzifəsinə təyin edildi. "Məmləkət" Cümhuriyyət Xalq Partiyasının Ankarada çap olunan "Ulus" qəzetinin İstanbul şöbəsiydi.

Rəşad Nuri Güntəkin müxtəlif janrlarda qələmə alınmış yüzdən artıq əsərin müəllifidir. Bunların on doqquzu romandır. "Gizli əl", "Çalıquşu", "Damğa", "Dodaqdan qəlbə", "Axşam günəşi", "Bir qadın düşməni", "Yaşıl gecə", "Acımaq", "Yarpaq tökümü", "Qızılcıq dalları", "Göy üzü", "Köhnə xəstəlik", "Atəş gecəsi", "Dəyirman", "Miskinlər təkkəsi", "Xarabaların çiçəyi", "Qovaq yelləri", "Son sığınaq" və "Qan davası" adlanan bu romanlarda yazıçı hadisələri, ədəbi qəhrəmanlarının həyatını o qədər inandırıcı təsvir edir ki, onlardan təsirlənməmək mümkünsüzdür. Rəşad Nuri Güntəkinin öz dəstxətinə uyğun olaraq sadə bir dildə qələmə aldığı bu əsərlər mövzu baxımından geniş və zəngindir. Müəllif yaşadığı dövrün nöqsan və çatışmazlıqlarını cəsarətlə tənqid edirdi. Yazıçı ümumiləşdirmələr apararaq bəzən bir ailənin, bəzən bir insanın timsalında bütövlükdə cəmiyyətdə hökm sürən problemləri diqqətə çatdırırdı. O, göstərirdi ki, qadınlarla kişilərin bərabərliyini qəbul etməyən cəmiyyətdə qadınlar əzab-əziyyətlər, məhrumiyyətlər içərisində yaşamağa məhkumdurlar.

Romanlarının bəzilərində hadisələri qəhrəmanlarının dilindən təsvir etməsi barədə isə Rəşad Nuri Güntəkin yazırdı: "Mən qəhrəmanlarımdan birini alıb onun ağzından anlatmağa daha çox üstünlük verirəm. Həm bu zaman süjet pozulmaz, həm də əhvalatı anladan qəhrəman vəhdəti mühafizə edər. Sonra bunun bir yaxşı cəhəti də vardır; romana görə məsuliyyətin mühüm bir qismini üstündən silib atmış olursan. Adətən, bir romançının yaratdığı təsvir oxucuya soyuq gələ bilər, bir çox oxucular romançının bir adamı anlatmasını bəyənməyə bilər. Ancaq romanı qəhrəmanının dilindən anlatsanız, məsuliyyətin bir hissəsi sizdən çox qəhrəmanın üzərinə düşər".

O, 1950-ci ildə Parisə getdi. UNESKO-nun Türkiyə təmsilçisi və tələbə müfəttişi olaraq çalışdı. Türkiyənin Parisdəki səfirliyində mədəniyyət attaşesi kimi fəaliyyət göstərdi. Beynəlxalq miqyasda türk milli-mədəni tarixinin təbliğində böyük işlər gördü. 1954-cü ildə yaşı ilə əlaqədar olaraq bu vəzifədən istefa verdi. Bir müddət İstanbulda çalışdı. İstanbul Şəhər Teatrının ədəbi heyətinin üzvü kimi fəaliyyət göstərdiyi zaman amansız xəstəliyə düçar olduğunu öyrəndi. Ağciyər xərçəngi diaqnozu ilə Londona yollandı. Orada müalicə olunacağına ümid edirdi. Amma xəstəlik güclü çıxdı. 1956-cı il dekabrın 7-də Londonda vəfat etdi. Cənazəsi vətəninə gətirildi. Vəsiyyətinə əsasən, Qaracamaat qəbiristanlığında dekabrın 13-də dəfn olundu.

İllər ötür... Müasir türk realist ədəbiyyatının görkəmli nümayəndələrindən biri hesab edilən Rəşad Nuri Güntəkinin əsərlərinə mütaliəsevərlərin marağı azalmır. Kinorejissorlar da yenə böyük həvəslə yazıçının yaradıcılığına müraciət edirlər. Kino sənətində üstünlüyü serialların ələ keçirdiyi bir vaxtda Rəşad Nuri Güntəkinin "Yarpaq tökümü, "Dodaqdan qəlbə", "Çalıquşu" və başqa romanları əsasında çəkilmiş ekran əsərləri sevilə-sevilə izlənilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Dünya olduğu kimi

# Atəşin evi

**"...Mənzil başına çatmağımız iki saat çəkdi. Təpəliyə qalxdıqda qarşıda təsəvvürə gəlməyən qəribə bir mənzərə açıldı. Atəşgah dövrəsindəki binalar, tüstü və alov sovuran yüzlərlə irili-xırdalı ağaclar ovuc içi kimi görünürdü. Külək əsdikcə yanan alovun dilləri sanki qəribə rəqslər edir, gah bulaq kimi qaynayır, gah dalğa tək yan-yörəyə hücum edib şahə qalxır, gah da gözlənilmədən ucalırdı. Elə bir təsəvvür yaranırdı ki, guya külək alovla oynayır, onlar bir-birinə sarılır, sonra bir-birilə əlbəyaxa olurlar. Külək nə qədər cəhd edirdisə, odu, alovu söndürə bilmirdi".**



Fransız yazıçısı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində təsvir etdiyi bu məkandan danışacağıq. Dünyada mövcud olan iki atəşgahdan birindən... Atəşpərəstlərin ən ali sitayiş və ibadət məbədi olan Suraxanı Atəşgahından.

Atəşgah Bakıdan 30 km aralıda, Abşeron yarımadasındakı Suraxanı qəsəbəsinin cənub-şərq qurtaracağında, neft mədənlərinin yaxınlığında yerləşir. XVII-XVIII əsrlərdə təbii qaz çıxışı olan sönməz alovların yerində inşa edilmiş məbədin adı "Alov evi" və ya "Alov yeri" anlamı verir.

Güman olunur ki, indiki Atəşgahın yerində qərar tutmuş qədim Od Məbədi ərəb istilası dövründə dağıdılıb. XV əsrdən sonra Hindistanla yaranan iqtisadi və mədəni əlaqələrin inkişafı nəticəsində hindli atəşpərəstlər yenidən Abşerona gələrək, Suraxanı Atəşgahını bərpa ediblər. Deyilənə görə, məbəd Bakıya gələrək burada məskunlaşan və əslən Şimali Hindistandan olan sinkhlər təriqətinə mənsub hind icması tərəfindən inşa olunub.

Qədim məbədin qalıqları üzərində, təbii qazın çıxdığı əbədi məşəlin yerində inşa edilmiş Atəşgahın sahəsi 1368 kvadratmetr, yaxud 0,14 hektardır. 26 hücrədən və mərkəzi səcdəgahdan ibarətdir. Hücrələrdə davanaqari və qumruki hind əlifbaları ilə yazılmış müxtəlif məzmunlu kitabələr dövrümüzə qədər çatıb. Hücrələrin damında tüstünün çıxması üçün deşiklər açılıb. Məbəd ərazisindəki ən qədim tikili 1713-cü ilə, ən yeni tikili isə kitabəyə əsasən 1810-cu ildə tacir Kançanaqaranın hesabına inşa edilmiş mərkəzi altardır.

Memarlıq kompleksi planda beşguşəli çıxıntılı və iri giriş portalına malik müdafiə divarları və ərazinin mərkəzində yerləşən dördguşəli altar - alov məbədindən ibarətdir. Alov altarı Azərbaycan ərazisində hələ Midiya dövründən yayılmış qədim altar inşası ənənələrini əks etdirir. Alov altarı planının ənənəvi görünüşdə dörd küncdən sütunla dəstəklənən günbəzlə örtülmüş dörd tərəfinin açıq formada olması burdan qaynaqlanır.

Məbədin əsas binası həyətin ortasında yerləşən səcdəgahdır. Məbədin içərisində və damında od püskürməsi üçün çıxıntılar quraşdırılıb. Giriş üzərində Şirvan-Abşeron memarlıq məktəbi üçün xarakterik olan qonaq otağı - balaxana yerləşir. Səcdəgahın yanında hazırda daşlarla doldurulmuş dərin dördbucaqlı quyu yerləşir. Əvvəllər həmin quyuda vəfat etmiş dindarların cəsədləri müqəddəs odda yandırılırdı. İbadətgah ərazisində yaşamış onlarla dindar rahib cəmiyyətdən aralı həyat sürərək müqəddəs alov vasitəsilə bədənlərini və ruhlarını təmizləyirdilər. Onlar boyunlarından ağırlığı 30 kiloqrama kimi olan zəncirlər asır, bədənlərinin müxtəif yerləri yanana kimi kalsium oksid üzərində uzanırdılar. Məbəd kahinləri heç bir işlə məşğul olmur və zəvvarların ianələri hesabına yaşayırdılar. Onlar inanırdılar ki, ölümdən sonra insanın ruhu dirilir və yenidən yerə qayıdır. Ruhun hörmətli adam və ya hansısa heyvan cildində qayıtması isə insanın sağ ikən topladığı müsbət karmaların miqdarından asılıdır.

Atəşgah 1972-ci ildən muzey kimi fəaliyyət göstərir. 1975-ci ildə bərpa edildikdən sonra isə "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Qoruq-Muzeyinin filialına çevrilib. Prezident İlham Əliyevin 19 dekabr 2007-ci ildə imzaladığı sərəncamla bu ərazi "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib, kompleks ətrafında açıq səma altında muzey yaradılıb. "Atəşgah məbədi"nə 30 sentyabr 1998-ci ildən mədəni irs nümunəsi kimi "gücləndirilmiş mühafizə" statusu verilib və UNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilib.

Hər il orta hesabla 145 min nəfərin ziyarət etdiyi muzey unikal və milli maddi sərvət kimi bu gün də qədim din olan zərdüştlüyün ardıcılları haqqında ən müfəssəl məlumat verən, bütün Yer üzündəki iki nadir atəşgahdan birincisi olaraq qalmaqdadır.

***Xəyalə MURADLI, "Azərbaycan"***

## Bilirsinizmi...



- Dünya əhalisinin hər 5 nəfərindən biri çinlidir;
- Balinalar gözləri açıq yatır;
- Orta əsrlərdə İngiltərədə bir qanuna əsasən, borca görə həbs qərarı çıxarılmış adamı evində həbs etmək olmazdı. Onu həbs etmək üçün evdən çölə çıxmasını gözləmək lazım idi;
- Məşhur yapon rejissoru Yasujiro Ozunun vəsiyyətinə görə, onun qəbrinin üstündə sadəcə "Heç kim" yazılıb;
- Məşhur ingilis neft firması "Shell" əvvəllər sadəcə balıqqulağı satan bir firma idi. Balıqqulağı axtararkən təsadüfən neft yataqlarını tapıblar;
- Səhər tezdən beynin oyanması üçün alma kofedən daha effektiv təsir göstərir;
- İnsan bədənindəki tüklərin yalnız 2 faizi başın payına düşür;
- Siçovul dəvədən daha çox susuz qala bilir.

## Üzərindən ekvator xətti keçən ada



İzabela və ya Albemarl adası Qalapaqos arxipelaqına daxil olan ən böyük adadır. Sahəsi 4,640 kvadratkilometrdir. Xristofor Kolumbun səyahətlərini maliyyələşdirən kraliça İzabela Kastilyanın şərəfinə adlandırılıb.

Arxipelaqın yeganə adasıdır ki, üzərindən ekvator xətti keçir. Ən yüksək nöqtəsi dəniz səviyyəsindən 1,707 metr hündürlükdə olan Vulf vulkanı hesab olunur. Vulf vulkanının kraterində göl yerləşir.

Adada ümumilikdə 6 aktiv vulkan var: Darvin, Vulf, Alsedo, Serro-Asul və Santo-Tomas. Burada tez-tez lava axınları müşahidə edilir.

Adada Qalapaqos pinqvinləri, uça bilməyən quş sayılan Qalapaqos baklanları, dəniz iquanaları, xərçəngkimilər və başqa canlılar yaşayır. İzabela adası özünəməxsus faunaya malikdir.

# Kosmosla bağlı nəzəriyyələri alt-üst edən kəşf

**Elm adamları nəzəriyyələrə görə mümkün olmayan nəhənglikdə yeni planet kəşf ediblər. Yupiterə oxşayan planet orbitində fırlandığı Günəşlə müqayisədə qeyri-adi böyüklükdədir.**



Yeni kəşf olunan planet ətrafında fırlandığı qırmızı rəngli ulduzdan (Günəş) o qədər də böyük deyil. Bu göy cismi Yer kürəsindən 284 trilyon məsafədə yerləşir.

Araşdırma haqda danışan İngiltərənin Varvik Universitetinin professoru Peter Uitli deyib: "Bu, çox həyəcanvericidir. Çünki uzun müddətdir kiçik ulduzların ətrafında Yupiter və Saturn kimi nəhəng planetlərin əmələ gəlib-gəlməməsi ilə maraqlanırdıq. İndiyədək belə bir halın mümkün olmadığına inanırdıq. Çünki kiçik ulduzlar sayca çox olmaqla yanaşı, onları araşdırmaq da çox çətin idi".

"Qırmızı ulduz"un həcmi ətrafında fırlanan "GJ 3512b" adlanan planetdən böyükdür. Lakin aralarındakı həcm fərqi, məsələn, Günəş və Yupiter arasındakı fərqdən daha azdır.

Ətrafında fırlandığı ulduz planetdən 270 dəfə böyükdür. Günəş isə Yupiterdən 1.050 dəfə daha böyükdür.

Professor Mordazini qeyd edir ki, "GJ 3512b"nin həcmi Yupiterin yarısı qədərdir. Yəni yeni planet bu qədər kiçik bir ulduzun ətrafında yerləşə bilirsə, bu, nəzəri olaraq qəbul edilən planet modelindən daha böyükdür. Bu kəşf elm adamlarının planetlərin yaranması haqda qəbul etdiyi bütün nəzəriyyələrə meydan oxuyur.

## Təbiətin dostları

# Ölüm, yoxsa müdriklik rəmzi?

**Yunan mifologiyasında bayquş ağıl və qələbə rəmzi olub. Roma mədəniyyətində uğursuzluq və dağıntıların simvolu idi. Qədim Misirdə ölüm rəmzi sayılırdı. Şərqdə də fəlakət, bədbəxtlik simvolu kimi anlanılır. Avropada isə müdriklik rəmzi hesab olunur. Halbuki bu quşda fövqəltəbii heç bir qüvvə yoxdur.**



Antarktikadan başqa bütün qitələrdə 200-ə qədər bayquş növü var. Onların ən böyüyü Avrasiya qartal bayquşu, ən balacası cırtdan bayquşudur. Qartal bayquşları ən güclü yırtıcı quşlardan biri olub hətta canavar, meymun və dəvəquşu balalarını belə ovlayırlar. Kiçik bayquş növləri böcəklərlə qidalanırlar.

Bayquşun bədəni 17-74 sm uzunluğunda, ağırlığı isə 50 qr-dan 3,25 kq-dək olur. Yapalaq bayquşun qanadının uzunluğu 2 m, çəkisi isə 2 kq-dan artıqdır. O, təkcə ölçüləri ilə deyil, səsi ilə də məşhurdur: məhz onun ulamasını xalq arasında qulyabanının qışqırtısına bənzədirlər.

Səssiz uçan bu quşlar dağ yamaclarındakı kolluqlarda, meşədəki ağac koğuşunda, qayalardakı yarıq yerlərdə, köhnə uçuq xarabalıq ərazilərdə yaşayırlar.

Dişi bayquş yuvasında qoyduğu 8-10 yumurtadan 2-3 cücə çıxarır. Onlar kənd təsərrüfatına zərər vuran həşəratlar və sünbülqıran gəmiricilərlə qidalanırlar. Bayquşlar əkin sahələrinə, meşədəki ağaclara zərər verən həşərat və xırda gəmiriciləri məhv etdiyi üçün xeyirli quşlardır.

Bayquşların boynu insanın boynundan daha elastikdir. Onlarda 14, bizdə isə 7 boyun fəqərəsi var. Bundan başqa, bayquşda oksigenli qanın beyinə daşınma forması çox fərqlidir.

Digər yırtıcı quşlar arasında bayquşlar ən qalın tüklərə sahibdirlər. Məsələn, qarlı bölgələrdə yaşayan bayquş növünün xüsusilə ayaqlarının üzəri olduqca qalın tüklərlə örtülüdür. Bayquşların lələkləri digər quşların lələklərindən çox fərqlidir. Ləleyin üzü tam bitişmir, ucları isə saçaqlıdır. Tədqiqatlar göstərib ki, bu cür lələk quruluşu nəinki səsi, ultrasəsi belə boğur. Bu, çox vacibdir, çünki bir çox xırda gəmiricilər ultrasəsə qarşı həssas olurlar. Ona görə də bayquş öz qənimətinə gizlicə yaxınlaşır.

Yırtıcı qarmaqdimdik, qüvvətli iri caynaqları olan bayquşlar gecə quşlarıdır. Bu səbəblə ov etmək üçün temperaturun aşağı olduğu gecələrdə hərəkətə keçirlər.

Eşitmə duyğuları olduqca inkişaf edən bayquşlar ovunun yer altında ən kiçik hərəkətini və ya yarpaqların arasında tərpənməsini belə eşidirlər. Səslərə qarşı olduqca həssas olan bu canlıların qulaqlarının ətrafında yerləşən tüklər səs dalğalarını bir növ tutaraq qulaqlara ötürür. Eşitmə seyvanları insanınkından daha genişdir.

Kəskin və iri gözləri uzağı çox yaxşı görmələrinə səbəb olsa da, yaxını bulanıq görürlər. Gözlərinin iri və kürəşəkilli olması onların gecə görməsini asanlaşdırır. Bayquşlar mavi rəngi görən tək quş növüdür. Boyun skelet quruluşu digər quşlardan fərqlənən bayquşlar başlarını 270 dərəcə fırlada bilirlər. Bu da onların gözlərinin ancaq qarşıya doğru baxa bilməsi ilə bağlıdır.

Bayquşun əyilmiş dimdiyinin ucu bıçağın ucu kimi iti olur. Pəncəsinin baş barmağı isə çox hərəkətlidir və silah kimi çox təsirlidir.

## Sağlıq olsun

# Mavi ölüm

## Həkim məsləhəti

**Qış aylarında təbii qaza olan tələbat artdığı üçün dəm qazı ilə zəhərlənmə halları da çoxalır. Bəs dəm qazı nədən yaranır? Zəhərlənmə baş verdikdə nə etmək lazımdır? Zəhərlənmiş şəxsi ilkin tibbi yardımla həyata qaytarmaq mümkündürmü?**



Kimyəvi adı karbon monoksid olan dəm qazı yanacaq məhsullarının xaric olması üçün yer olmadıqda və ya həmin yer tutulmuş olanda natamam yanma nəticəsində əmələ gəlir. Dəm qazı iysiz, rəngsiz olduğundan insan onu hiss etmir və bu qazla zənginləşmiş hava ilə nəfəs aldıqda karbon monoksid qana daxil olur, nəticədə karboksihemoqlobin yaranır. Məhz bu birləşmənin hesabına toxumalar oksigensizləşir, hipoksiya yaranır.

Bakı Şəhər Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin baş həkimi Azər Maqsudov məlumat verir ki, dəm qazı ilə zəhərlənmələrin əksəriyyəti hamam otağında və qapalı məkanlarda baş verir. Ona görə də qaz cihazı olan yerlərdə diqqətli olmaq və qaydalara riayət etmək ən vacib şərtlərdən biridir. Oksigendən fərqli olaraq, dəm qazının havada az miqdarda olması belə insanın 5-6 dəqiqəyə zəhərlənməsinə kifayət edir. Zəhərlənmə 3 dərəcədə - yüngül, orta, ağır ola bilər. Dəm qazı ilə zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, başağrısı, quru öskürək, ürəkbulanma, hava çatışmazlığı, ürək döyüntüsü, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə olanda isə qıcolmalar, huşun itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir.

### Dəm qazından zəhərlənəni həyata qaytarmaq mümkündürmü?

A.Maqsudov bildirir ki, ilk növbədə zəhərlənən həmin sahədən uzaqlaşdırılıb açıq havaya çıxarılmalıdır. Huşu özündə deyilsə, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, mümkünsə nəfəs yollarını açmaq üçün ağız boşluğundakı seliyi təmizləmək, başına və sinəsinə soyuq islatma qoymaq, burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırmaq lazımdır. Əgər zərərçəkənin nəfəsi dayanıbsa, ona süni nəfəs vermək və mütləq təcili tibbi yardım çağırmaq lazımdır. Dəm qazından zəhərlənmə hallarında ilkin tibbi yardımın köməyi ilə zəhərlənəni həyata qaytarmaq mümkündür: "Əgər zəhərlənən insan sadə suallara reaksiya verib, cavablandırırsa, bu o deməkdir ki, onun huşu itməyib. Yox, cavab verə bilmirsə, reaksiya yoxdursa, hər an təhlükəli sayılmalıdır. Bu məsələdə hər saniyə çox önəmlidir. Vaxt itirilsə, beyin hüceyrələrində, toxumalarda qısa zamanda fəsadlaşma başlayır. Bundan başqa, ən yüngül halda belə dəm qazından zəhərlənən şəxs sonradan fəsadların yaranmaması üçün bir sutka ərzində həm toksikoloqun, həm də nevropatoloqun nəzarətində olmalıdır. Əgər zərərçəkən komaya düşərsə, müalicəsi bir həftə, on gün, hətta bir aya qədər çəkə bilir. Nitq, hərəkət pozğunluğu, əzələ zəifliyi kimi fəsadlar yaranır və bu, ciddi olursa, müalicəni sonrakı vaxtlarda da davam etdirmək lazım gəlir".

### Təhlükə zamanı 112-yə zəng edin

Toksikoloq onu da deyib ki, dəm qazından zəhərlənmə hallarının qarşısını almaq mümkündür. Belə ki, dəm qazı əmələ gələrkən xəbərdarlıq edən qurğular var. Onları qaz cihazlarına yerləşdirən zaman zəhərli qazın əmələ gəlməsi barədə işarə verir və qazın verilişi dayanır.

Fövqəladə Hallar Nazirliyi (FHN) də əhaliyə müraciət edərək bildirib ki, qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması dəm qazı təhlükəsi yaradır.

Ölümlə nəticələnə bilən bu təhlükə ilə üzləşməmək üçün aşağıdakılara riayət etmək vacibdir:

- qaz cihazı saz və standartlara uyğun olmalı;
- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
- hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;
- tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Həmçinin təhlükə zamanı 112-yə zəng etmək lazımdır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Bilirik?

- İntellektin yoxlanılması üçün müntəzəm olaraq keçirilən testlər göstərir ki, hər növbəti nəslin intellekt əmsalı keçmiş nəslinkinə nisbətən 5-25 vahid çoxdur, yəni bəşəriyyət daim ağıllanır;
- Usta toxucu qara rəngin 100 çalarını seçə bilir;
- Ürəyə də yer olsun deyə sol ciyər sağ ciyərdən balacadır;
- İnsan bədəninin tüklü olması ciyərin serroz xəstəliyinə tutulmasının qarşısını alır;
- Beyin özü ağrı hiss etmir;
- Qan dövranı sisteminə daxil olan oksigenin 20 faizini beyin istifadə edir;
- İnsan bədənində olan dəmirlə 6 santimetr uzunluğunda bir mismar düzəltmək olar;
- Qaraciyərin 500-dən artıq funksiyası var;
- Hər 27 gündənbir dəri yenilənir;
- İnsanın ayaqlarında 250 min tər vəzisi mövcuddur;
- İnsan beyninin bir hüceyrəsi böyük bir ensiklopediyadan daha çox informasiya saxlamağa qadirdir.

## Şəfalı bitkilər

### Xəstəliklərin ətirli və dadlı dərmanı



**Ləzzətli və ətirli portağalın faydaları saymaqla bitmir. Bu meyvənin tərkibi A, B1, B2, B9, PP, E vitaminləri, dəmir, marqans, yod, kobalt, mis, ftor, sink, kalium, kalsium, maqnezium, fosfor, flavonoidlər, orqanik turşular, qidalı liflərlə zəngindir və əsl mənada C vitamini deposudur.**

Məhz bu səbəblərdən portağal orqanizm üçün əvəzolunmazdır. Xərçəng əleyhinə təsiri olan portağalın tərkibində D-limonen maddəsi var. Bu maddə dəri, süd vəzisi, ağciyər, ağız və yoğun bağırsaq xərçənginin profilaktikasında böyük rol oynayır.

C vitamini soyuqdəymə və qrip xəstəlikləri zamanı daha tez sağalmağa kömək edir. Həmçinin bu vitamin damarların sağlamlığı üçün də çox vacibdir və onların sərtləşməsinin qarşısını alır, trombların əmələgəlmə riskini azaldır. Bu meyvə mis, dəmir və fol turşusunun sayəsində qanın tərkibini yaxşılaşdırır.

Böyrəklərdə daşların əmələ gəlməsinin qarşısını alan və liflərlə zəngin olan portağal qanda xolesterinin səviyyəsini aşağı salır, bağırsaqları təmizləyir.

O cümlədən arterial təzyiqi aşağı salır, ürəyə düşən gərginliyi və ürək xəstəliklərinin riskini azaldır. Şəfalı meyvə insanın əhvalını da yaxşılaşdırır, stressi, yorğunluğu azaldır, orqanizmin tonusunu artırır.

## Sağlam qida

### "Paytaxt" salatını bu cür hazırlamaq sağlamlığa ziyandır

**Ləzzətli "Paytaxt" salatının süfrələrdə özünəməxsus yeri var. Amma mütəxəssislər xəbərdarlıq edir ki, bu salatın hazırlanması ərəfəsində yol verilən səhvlər sağlamlığa ciddi ziyan vurur.**



Diyetoloq-nutrioloq Leyla Zülfüqarlı deyir ki, "Paytaxt" salatı bişmiş salatlar növünə aid olduğu üçün tərkibində antioksidant mənbəyi çox azdır. "Paytaxt" salatına tərkibində karbohidrat çox olan bişmiş kartof və yumurta vurulur. Bu məhsulların qatışdırılması da artıq kaloriyə səbəb olur. Bundan başqa, "Paytaxt" salatına kəskin dərəcədə oksidləşmiş yağ turşuları olan mayonez və konservləşdirilmiş yaşıl noxud qatılır: "Halbuki soya məhsulları vurulan salat hazırlanan kimi yeyilməlidir. Buna baxmayaraq, salat çox miqdarda hazırlanır və günlərlə soyuducuda saxlanılır. Bu zaman zəhərlənmə riski də artmış olur. Çünki tərkibində konservləşdirilmiş noxud, bişmiş karbohidratlar və mayonez var, yəni zərərli bakteriyalar üçün açıq mühit formalaşdırılıb. Təbii ki, bu şəkildə soyuducuda qalan qida mədə-bağırsaq orqanlarında müəyyən xəstəliklərə meydan açır. Salatın soyuq şəkildə yeyilməsi də orqanizmə ziyandır, bu zaman qastritə də şərait yaranır".

Diyetoloq məsləhət görür ki, mayonez mütləq xama ilə əvəz olunmalıdır, yəni daha çox doymamış yağ turşularından istifadə edilməlidir. Hazırlanan məhsula soya məhsulu konservləşdirilmiş yox, təzə qaynadılmış şəkildə vurulmalıdır. Əgər salat çox olacaqsa, ərzaqlar hazırlanıb ayrı-ayrılıqda saxlanılmalı və yalnız süfrəyə veriləndə qarışdırılmalıdır.

"Paytaxt" salatının bir porsiya üçün kalorisi isə yarım porsiya plovun kalorisinə bərabərdir.

## Düzgün seçim

### Menyunuzu rəngarəng edin: FAYDASI İNANILMAZ OLACAQ



**Elmi araşdırmalara əsasən məlum olub ki, müxtəlif rənglərdə olan meyvə və tərəvəzlərlə qidalanmaq insan orqanizmini bir çox xəstəliklərdən qoruyur.**

Daxili xəstəliklər üzrə türkiyəli mütəxəssis Osman Erkin bildirib ki, başda xərçəng olmaqla ürək və şəkər xəstəlikləri də bu sıradadır. Professorun sözlərinə görə, təkbaşına heç bir qida insanı xərçəngdən qoruya bilmir, ancaq bu, doğru birləşmələrlə mümkündür. Boşqabımızdakı qidaların üçdə ikisini meyvə-tərəvəz, üçdə birini isə heyvan mənşəli məhsulların təşkil etməsi xərçəngdən qorunmanın ilk addımıdır. Mövsümündə yemək şərti ilə meyvə və tərəvəzlər xərçənglə mübarizə üçün zəngin qida qaynaqlarıdır. Onların tərkibində insan orqanizmi üçün vacib protein, karbohidrat, yağ, vitamin, mineral, lif, antioksidant və antikanserogen kimi bir çox qida maddəsi var. Həmçinin çox meyvə-tərəvəz yeyən xərçəng xəstələrinin də daha uzun yaşadığı sübut olunub. Xüsusilə turp, soğan, sarımsaq, moruq, böyürtkən, çiyələk güclü xərçəng "savaşçı"sıdır: "Eyni zamanda, menyuda fərqli və müxtəlif rəngli qidaların olması orqanizmin ehtiyacı olan makro və mikro qidaları almaq şansını artırır, antioksidant, vitamin, mineralla təmin edir".

## Tibbi yenilik

### Artıq xərçəng və Alzheimer inkişaf etmədən qan testi ilə təyin olunacaq



Yüz illərin xəstəliyi xərçəng və Alzheimer artıq əvvəlcədən təyin ediləcək. Bu barədə məşhur biotexnologiya mütəxəssisi Mathias Uhlen məlumat verib. O bildirib ki, hazırda elm aləmi araşdırmalarını insan DNT-sinin əsasını təşkil edən qandakı proteinlərə yönəldib: "Hər kəsin qanında öz barmaq izləri var. Bunun sayəsində insanın sağlıqlı olmasını, yoxsa hansısa xəstəliyə yaxalandığını izləyə bilərik. Böyük ehtimalla yaxın gələcəkdə hər il bir dəfə qan testi tətbiq edərək, hər hansı bir xəstəliyin inkişaf edib-etməməsi barədə məlumat alma şansımız olacaq. Həmçinin Alzheimer xəstəliyinin simptomlarını və ya əlamətlərini görə bilmək, qaraciyər piylənməsi, diabet kimi xəstəlikləri də hələ yaranmadan izləmək mümkün olacaq".

# Azərbaycan komandası qış polosu yarışlarına qələbə ilə başladı

İsveçrənin Sankt-Moritz şəhərində keçirilən ənənəvi qış polosu üzrə dünya kuboku turniri davam edir.










Azərbaycan Respublikası Atçılıq Federasiyasından (ARAF) bildiriblər ki, Heydər Əliyev Fondunun dəstəyi, ARAF-ın təşkilatçılığı ilə turnirdə ölkəmizi təmsil edən “Land of Fire” komandası avropalı tamaşaçılara polonun Vətəni Azərbaycanın atçılıq ənənələrini, Odlar Yurdunun füsunkar təbiətə, qədim mədəniyyətə malik olmaqla yanaşı, güclü idmançılar diyarı olmasını nümayiş etdirir.

Yanvarın 24-də ilk oyun günündə Azərbaycan idmançıları “Badrutt's Palace Hotel” komandası ilə qarşılaşıblar. Otuz altı illik tarixə malik qar üstündə dünya kubokunun 1985-ci ildən etibarən daimi iştirakçılarından olan, güclü heyətə malik “Badrutt's Palace Hotel” komandası idmançılarımızın müqavimətini dəf edə bilməyib. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən, dramatik anları və emosional epizodları ilə yadda qalan oyunda idmançılarımız rəqiblərini 8:4 hesabı ilə məğlub ediblər. Baş məşqçi Namiq Orucovun komandasının kapitanı Elçin Camallı qarşılaşmada xüsusilə fərqlənib. Digər oyunçular - Rəşad Həsənov, Əli Rzayev, Pato Bolanteiro, Aqustin Kronhaus, Santiaqo Marambio də qələbənin əldə olunmasına mühüm töhfə veriblər.

Günün digər qarşılaşmasında “St. Moritz” komandası 6:31/2 hesabı ilə “Mazetati” komandasına qalib gəlib.

Bu gün ikinci oyunda “St. Moritz” komandası ilə qarşılaşacaq komandamız bu görüşdə də qalib gələrsə, birbaşa finala yüksələcək.

***“Azərbaycan”***

# Şahdağın ətəyində







*Foto Ağaəli MƏMMƏDOVUNDUR*


## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə katriclərin satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2(iki) müqavilə) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *katriclərin satışı ilə bağlı istehsalçı firmanın etibarnaməsi (MAF) təqdim edilməlidir;*
- *keyfiyyət uyğunluğuna dair göstəricilər (mal-materialların keyfiyyət zəmanəti, mənşə sertifikatı, uyğunluq sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 fevral 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **27 fevral 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı **28 fevral 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***



## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə proqram təminatına dair lisenziyaların satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 1 (bir) müqavilə) və Lisenziyanın satışı ilə bağlı istehsalçı firmanın etibarnaməsi (MAF) təqdim edilməlidir.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 fevral 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **27 fevral 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı **28 fevral 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***


# Beynəlxalq aləm

## Türkiyədə dağıdıcı zəlzələ



Türkiyənin Elazığ vilayətində baş vermiş güclü zəlzələ nəticəsində 21 nəfər həlak olmuş, 1030 nəfər yaralanmışdır. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Zəlzələdən sonra 274 afterşok qeydə alınmışdır. Dağılmış binaların uçqunları altında axtarış-xilasetmə işləri aparılır. Zəlzələdən zərər çəkmiş rayonlara axtarış-xilasetmə orqanlarının 1167 əməkdaşı, 18 xidməti it və 235 nəqliyyat vasitəsi göndərilmişdir.

Xatırladaq ki, srağagün yerli vaxtla 20:55-də ölkənin şərqində 6,8 bal gücündə zəlzələ baş vermişdir. Yeraltı təkanların episentri Elazığ vilayətinin Sivricə rayonunda olmuşdur.

Yeraltı təkanlar Adana, Hatay, Osmaniyə, Tunceli, Qaziantep, Şanlıurfa, Malatya, Mardin, Samsun, Tokat, Çorum və Kayseri vilayətlərində, habelə Suriya və İraqın şimalında hiss edilmişdir.

## Çində koronavirusun qurbanlarının sayı artır



Çində artıq 41 nəfər ölümcül koronavirusun qurbanı olmuşdur. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Məlumata görə, son bir gün ərzində daha 15 nəfər vəfat etmişdir. Hazırda virusa yoluxmuş 1287 xəstə var. Özü də virus praktiki olaraq Çinin bütün əyalətlərinə yayılmışdır. Ölüm halları əsasən ötən ilin dekabrında xəstəliyin ilk dəfə aşkar olunduğu Uhan əyalətində qeydə alınıb. Şəhərə giriş-çıxış bağlanmışdır.

Əldə olan məlumata görə, virus artıq Malayziya, Fransa və Avstraliyaya keçmişdir. Bundan əlavə, Tailand, Yaponiya, Cənubi Koreya, ABŞ, Honq Konq, Tayvan və Makaoda ölümcül xəstəliyə yoluxma halları qeydə alınmışdır.

## ABŞ İraqdakı bazalara hücum zamanı yaralanmış hərbçilərin sayını açıqladı

Pentaqonun rəsmi nümayəndəsi Conatan Hoffman İraqda raket atəşi zamanı zərər çəkmiş amerikalı hərbçilərin dəqiq sayını açıqlamışdır. Onun dediyinə görə, hücum zamanı hərbi bazada olmuş 34 hərbi qulluqçu kontuziya və baş-beyin xəsarəti almışdır. Bəzi əsgərlər artıq bazaya qayıtmış, 8 nəfər ABŞ-da, 9 nəfər Almaniyada müalicəsini davam etdirir.

Xatırladaq ki, yanvarın 8-də İranın İslam İnqilab Qvardiyası İraqda ABŞ qoşunlarının yerləşdiyi Əsəd aviasiya bazasını və Ərbil yaxınlığındakı hərbi obyekti raket atəşinə tutmuşdur. Adamlarla yanaşı, helikopter, çadırlar və texnikanın dayandığı meydançalar da zərər çəkmişdir.

## Myanma ordusu müsəlman kəndini güllələbaran etdi

Dünən Myanmada hərbi qulluqçular müsəlman kəndini atəşə tutmuşlar. Nəticədə iki qadın həlak olmuşdur. Onlardan biri hamilə idi. Daha yeddi nəfərin yaralandığı bildirilir. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

Şahidlərin dediyinə görə, hərbçilər gecəyarısı kəndi güllələbaran etmişlər.

Xatırladaq ki, üç gün əvvəl BMT-nin Beynəlxalq Məhkəməsi arakanlı müsəlmanların müdafiəsi barədə hökm çıxarmışdır.

## Boliviya Kuba ilə diplomatik münasibətləri kəsdi

Boliviyanın Xarici İşlər naziri Yerko Nunyes Kuba ilə diplomatik münasibətlərin kəsildiyini bildirmişdir. Buna səbəb nazirin kubalı həmkarı Bruno Rodriges Parilyanın son bəyanatlarıdır. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir.

Nazir Havananı Boliviyanın legitim hökumətini müntəzəm olaraq təhqir etməkdə günahlandırmışdır.

Bundan əvvəl Boliviya Xarici İşlər Nazirliyi venesuelalı diplomatları ölkənin daxili işlərinə qarışmaqda ittiham etmiş və Venesuela ilə diplomatik münasibətlər kəsilmişdir.


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti



Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Lazım Quliyev **SEYİD HÜSEYN ABBASOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri ”Azərenerji” ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elmira Süleymanova “Azərenerji” ASC-nin prezidenti Baba Rzayevə anası **XANIM RZAYEVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi “Azərenerji” ASC-nin prezidenti Baba Rzayevə anası **XANIM ƏLİMƏMMƏD QIZI RZAYEVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsaxan Vəliyev və Hacı Abdulla BDU-nun prorektoru Əliş Ağamirzəyevə bacısı **HƏCƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı **FƏXRƏDDİN NƏCƏFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının və Onkologiya kafedrasının kollektivi klinikanın direktoru, akademik Əhliman Əmiraslanova əzizi **NADİR KƏRİMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının və Onkologiya kafedrasının kollektivi kafedranın professoru Azər Əmiraslanova əzizi **NADİR MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və ASC-nin kollektivi “Azərenerji” ASC-nin prezidenti Baba Rzayevə anası **XANIM ƏLİMƏMMƏD QIZI RZAYEVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6855
Sifariş 202
Qiyməti 40 qəpik